№ 247 ISSN 1027-3875 15 mart 2008

KHAZAR VIEW

XƏZƏR XƏBƏR



ELMİ-KÜTLƏVİ, BƏDİİ-PUBLİSİSTİK TOPLU

www.khazar.org

ELMİ-KÜTLƏVİ,
BƏDİİ-PUBLİSİSTİK
TOPLU

1995-ci ilin
yanvarından ayda 2 dəfə çıxır

Təsisçi:
XƏZƏR UNİVERSİTƏSİ

Baş redaktor:
Hamlet İSAXANLI

Baş redaktor müavini:
Knyaz ASLAN

Məsul katib:
Cabir MƏMMƏDLİ

Redaksiya heyəti:
Camal MUSTAFAYEV
Tofiq ABASQULIYEV
Nurəddin RZAYEV
Cəmil HƏSƏNLİ
Bəhlul ABDULLA
Nizami CƏFƏROV
Əfqan ABDULLAYEV
İsmət ƏHMƏDOV

Rəssam:
Rafiq ƏBDÜLRƏHİMOV

Kompüter tərtibatçısı:
Zakir N. Yusifoğlu
Fotomüxbir:
Xeyrulla HACƏLİYEV

Ünvanımız:
Bakı, Məhsəti küçəsi 11,
("Neftçilər" metrosunun yanı)
Faks: 498-93-79
Telefon: 421-79-16
421-10-93

Şəhadətnamə: 255
İndeks: 67178

Tiraj: 3000

Müəlliflərlə
redaksiyanın mövqeyi
üst-üstə düşməyə bilər
Əlyazmalar geri qaytarılmır
Xəzər Universitəsi
mətbəəsində çap edilmişdir

SCIENTIFIC-POPULAR
LITERARY-PUBLICISTIC
COLLECTION

It has been publishing twice
a month since January, 1995

Founder:
KHAZAR UNIVERSITY

Editor-in-chief:
Hamlet ISAXANLI

Associate editor:
Knyaz ASLAN

Editorial assistant:
Jabir MAMMADLI

Editorial member:
Jamal MUSTAFAYEV
Tofiq ABASQULIYEV
Nuraddin RZAYEV
Jamil HASANLİ
Bahlul ABDULLA
Nizami JAFAROV
Afgan ABDULLAYEV
Ismat AHMADOV

Design by:
Rafig ABDULRAHIMOV

Computer graphics:
Zakir N. Yusifoglu
Photoreporter:
Kheyrulla HACALIYEV

Address:
11 Mahsati str., Baku,
(near the "Neftchilar" metro)
Fax: 498-93-79
Phone: 421-79-16
421-10-93

Certificate: 255
Index: 67178

Copies: 3000

The opinions of authors
and editors
could be independent
Manuscripts are not returned
Published by
Khazar University Press

OXUYUN


Bu nömrədə



Novruz 4

Xəzər Universiteti -17 7






Mart soyqırımı 18


Müsahibimiz Ann Dersy-dir 22





Uşaq dünyası 36

NOVRUZUMUZ MÜBARƏK!



Novruz bayramı, Bahar bayramı Şimal yarımkürəsində astronomik yazın başlandığı, gecə-gündüz bərabərliyi günündə (martın 20, 21, 22 də) keçirilir.

Bir sıra xalqlar yaz fəslinin gəlməsini təbiətinin canlanması ilə bağlamış, bu münasibətlə şənliklər keçirmiş, onu yeni ilin başlanğıcı kimi bayram etmişlər. Qədim zamanlardan başlayaraq Azərbaycanda baharın – yeni ilin gəlişini şənliklərlə qarşılayırlar. İran, Əfqanıstan, Tacikistan, Özbəkistan, Türkmənistan, Tacikistan, Pakistan, Qazaxıstan, Qırğızıstan və bəzi başqa Şərq ölkələrinin xalqları da Novruz bayramını təntənəli şəkildə keçirirlər. Martın 21-i İran və Əfqanıstanda rəsmi təqvimin ilk günü sayılır.

Hər bir xalq bu bayramla bağlı milli xüsusiyyətlərinə uyğun, özünəməxsus mövsum nəğmələri, mərasim nəğmələri yaratmışdır.

Qışın qurtarması və Baharın gəlişi münasibətilə geniş miqyasda qeyd olunan Novruz bayramı xalqımızın ən əziz və ən müqəddəs bayramıdır.

Alimlərin fikrincə, bu bayramın tarixi çox qədimdir. Babilistanda Bahar bayramı nisan ayının (mart, aprel) 21-ci günü qeyd olunur və 12 gün davam edirdi. Bu 12 günün hər birisinin öz rəmzləri, mərasimləri, ayinləri, öz əyləncələri mövcüd idi.

İlk yazılı mənbələrdə qeyd olunur ki, Novruz bayramı bizim eradan əvvəl 505-ci ildən keçirilməyə başlamışdır.

İslam xadimləri Bahar bayramına dini rəng verməyə çalışsalar da, Novruzun islamdan çox-çox əvvəl yaranmasını dahi filosof-alimlərdən Fürdovsi, Rudəki, İbn Sina, Nizami, Sədi, Hafiz və başqaları da təsdiq edirlər.

Nizamülmülkün "Siyasətnamə"sində, Ömər Xəyyamın "Novruznamə"sində və başqa əsərlərdə Novruz bayramının yaranması tarixi haqqında qiymətli məlumatlar var.

Nizami özünün "İsgəndərnamə" poemasında Nüşabənin İsgəndəri məhz Novruz bayramında qonaq çağırmasından, tonqal qalamasından və süfrəyə cübrəcür nemətlər qoymasından bəhs edir.

Sovet dövründə hökumət orqanları Novruzu keçirməyə icazə vermədiyinə və adamları təqib etdiyinə görə bu bayram qeyri-rəsmi qeyd olunurdu. Buna baxmayaraq, əsrlərdən qalmış ənənələrə sadiq olaraq, hər bir azərbaycanlı ailəsi bayramı təntənə ilə qarşılayırdı.

Azərbaycan xalqı bu bayramı bir ay qalmışdan qeyd etməyə başlayır. Belə ki, hər həftənin ikinci günündən üçüncü gününə keçən gecələr Su çərşənbəsi, Od çərşənbəsi, Torpaq çərşənbəsi və Yel çərşənbəsi şadyanalıqla qarşılanır.

Xalq inamına əsasən birinci çərşənbə günü su və su mənbələri təzələnib hərəkətə gəlir.

İkinci çərşənbə odla, üçüncü çərşənbə yerlə, torpaqla bağlıdır.

Dördüncü – Yel (Axır) çərşənbəsində yelin, küləyin köməyilə ağacların cücərməsi yazın, baharın gəlişindən xəbər verir. Xalq arasında elə təsəvvür yaranır ki, külək sudan da, oddan da, torpaqdan da güclüdür.

Çərşənbələrin içində ən vacibi Axır çərşənbə axşamıdır. Həmin gün qədim ənənələrlə zəngin olur. Təzə ilə xoş ovqata qədəm qoyulur, ailəyə səadət, xoşbəxtlik dilənir, bədbəxtliklərən uzaq olmaq arzulanır. Bütün evlərdə bayram süfrəsi açılır və süfrəyə cürbəcür yeməklər, əsasən aş (plov), şirniyatlar: paxlava, şəkərbura, şəkərçörək, şorqoğal, badambura və s. qoyulur. Süfrədə bayram xonçasının olması vacibdir. Xonçanın ortasında səməni, hər ailə üzvünə bir şam, boyadılmış yumurta qoyulur. Stolda yeddi növ yemək olmalıdır. Həmin gün hamı öz evində olmalıdır, ancaq uşaqlar ata-analarına baş çəkib, yenə də evə qayıtmalıdırlar.

Bayram mərasimi qədim ənənələrlə, rəngarəng oyunlarla zəngindir. Bu zaman xalq yaradıcılığının bütün janrlarından: nağıllar, hekayələr, dastanlar, lətifələr, məsxərələr və sair istifadə olunur. Onlardan "Xıdır İlyas" (məhsuldarlıq, çiçəklənmə rəmzi) mərasimi, "Kosa-kosa" meydan məzəli oyunu (baharın gəlməsi rəmzi) və falabaxma daha məşhurdur.

Su və odla bağlı maraqlı ənənələr var. Azərbaycan odlar ölkəsi kimi odla bağlı zəngin ənənələrə malikdir və bu, saflaşma, təmizlənmə əlamətidir. Novruzdan əvvəlki axırıncı çərşənbə həyətlərdə tonqallar qalanır. Adət-ənənəyə görə, yaşından və cinsindən asılı olmayaraq hamı tonqalın



üstündən tullanmalıdır. Özü də yeddi dəfə, ya bir tonqalın üstündən yeddi dəfə, ya da yeddi tonqalın hərəsinin üstündən bir dəfə. Tullanarkən bu sözlər deyilir: "Sarılığım sənə, qırmızılığın mənə", yaxud "Ağırlığım-uğurluğum odlara".

Tonqal heç vaxt su ilə söndürülmür. Tonqal özü sönəndən sonra cavan oğlan və qızlar həmin tonqalın külünü yığıb, evdən kənar bir yerə, çölə atırlar. Bu o deməkdir ki, tonqalın üstündən tullanan bütün ailə üzvlərinin bədbəxtçiliyi atılan küllə birlikdə ailədən uzaqlaşdırılır.

Su ilə saflaşma isə suyun real əlamətilə əlaqədardır. Su ilə əlaqədar olan ənənələr Azərbaycanda təzə illə bağlıdır. Təzə ildə axar suyun üstündən tullanmaqla keçən ilin günahlarını yumuş olursan. Bundan başqa bütün ailə üzvləri ötən ilin axırıncı gecəsi, yatmazdan əvvəl biri-birinin üstünə su çiləyirlər. Deyilənə görə, axırıncı çərşənbə gecəsi bütün axar sular dayanır və hamı ona səcdə edir, hətta ağaclar da yerə



əyilir. Əgər təzə il axşamı hər kəs bu sudan içərsə, o, təzə ildə bütün xəstəliklərdən uzaqlaşar.

Novruzun ən yüksək zirvəsi köhnə il öz səlahiyyətlərin təzə ilə verəndə olur. Bu anda köhnə ənənəyə görə Novruzun şərəfinə top və tüfənglərdən yaylım atəşləri açılır. Hələ XIX əsrdə N.Dubrovin bu haqda belə yazırdı: "Azərbaycanda Baharın gəlməsini şəhər və kəndlərdə açılan yaylım atəşləri bildirirdi".

Azərbaycanda – Şamaxıda Novruz bayramı təntənəsinin iştirakçısı olan Adam Oleari hələ 1637-ci ildə yazırdı: "Münəccim (astroloq) astronomik cihaz və günəş saatı vasitəsilə günəşin hündürlüyünü təyin edərək, gündüzlə gecənin bərabərləşdiyi anda elan etdi: "Təzə il gəldi" və elə bu anda yaylım atəşləri başlandı, şəhərin qüllələrindən və evlərdən musiqi səsləri ucaldı. Beləlikl, Bahar bayramı başlandı".

Azərbaycanlılar bayram süfrəsinə ciddi diqqət yetirirlər. Süfrədə yeddi növ xörək olmalı, onların adları "S" hərfi ilə başlamalıdır. Süfrədə həmçinin sumax, sirkə, süd, səməni, səbzi və s. olmalıdır. Bunlardan başqa stola güzgü və şamlar düzülür, güzgünün üstünə boyanmış yumurtalar qoyulur. Bunların da öz rəmzi mənası var: şam od, işıq deməkdir və insanı bədnəzərdən qoruyur, güzgü aydınlıq rəmzidir. Ənənəyə görə bayramın ilk günü hamı evdə olmalıdır.

Xalq arasında deyirlər: "Əgər bayram günü evdə olmasan, yeddi il dərbədər olacaqsan." Bir qayda olaraq, çöl qapıları bağlanmır. Təzə ilin birinci günü bütün gecə işıqlar söndürülmür, sönmüş od, işıq bədbəxtçilik əlamətidir.

Novruz günlərində kəndlilər təzə ilin necə keçəcəyini: quraqlıq, yaxud yağıntılı olacağını, məhsuldarlığın dərəcəsini təyin edirdilər. Ənənəyə görə, Novruzun birinci günü yaz, ikinci yay, üçüncü payız, dördüncü gün isə qış sayılır. Əgər birinci gün küləksiz və yağmursuz olarsa, deməli, bu yaz kənd təsərrüfatı işləri üçün əlverişli olacaq. Əksinə yağmurlu, küləkli olsa, deməli, bütün yaz belə keçəcək. Qalan üç günlərdə də yayın, payızın və qışın necə olacağı təyin olunur.

Bir sözlə, Novruz xalqımızın bütün xüsusiyyətlərini özündə cəmləşdirən əziz bayramdır.

Novruz bayramınız – Bahar bayramınız mübarək!

XƏZƏR UNİVERSİTETİNİN 17 YAŞI VAR



Xəzər Universiteti... Azərbaycanın və dünyanın ən öncül ali məktəbləri ailəsinə qovuşmuş təhsil ocağı!

Elm, bilik, təhsil, mədəniyyət və sağlamlıq mərkəzi!

Düz 17 il əvvəl tanınmış alim, fizika-riyaziyyat elmləri doktoru, professor ***Hamlet İsaxanlının*** təşəbbüsü, qətiyyəti və inadı sayəsində Sovetlər Birliyi miqyasında məhz Azərbaycanda həyat vəsiqəsi almış İLK ÖZƏL ALİ MƏKTƏB!

Öncə ingilisdilli Azərbaycan Universiteti adı ilə dünyaya göz açan, az sonra Xəzər Universiteti kimi şöhrətlənən bilik məbədi!

Yarandığı 17 il ərzində Xəzər Universiteti elm və təhsil sahəsində böyük nailiyyətlər qazanıb və beynəlxalq aləmdə tanınıb. Bu nüfuzlu ali təhsil ocağının keçdiyi şərəfli yolun bəzi tarixi məqamlarını oxucularımızın diqqətinə çatdırırıq.

* * *

Azərbaycan Respublkası Nazirlər Kabinetinin 18 mart 1991-ci il tarixli 41№-li qərarından:

"Respublikada ingilis dilini bilən geniş profilli, o cümlədən bazar iqtİsadiyyatının təşkili və müstəqil xarici iqtİsadi əlaqələrin həyata keçirilməsi üzrə yüksək ixtİsaslı kadrlara kəskin ehtiyacla əlaqədar olaraq Azərbaycan Respublikası Nazirlər Kabineti qərara alır:

1. Azərbaycan Respublikası Nazirlər Kabineti yanında... çoxprofilli Azərbaycan İngilisdilli Universiteti ***(Xəzər Universiteti – red.)*** yaradılsın. Universitetdə beynəlxalq standartlara uyğun gələn, məzunları bakalavr və magistr diplomları ilə yanaşı ingilis dili tərcüməçisi diplomu da alan ikimərhələli ali təhsil nəzərdə tutulsun.
2. ...Azərbaycan Ingilisdilli Universiteti öz Nizamnaməsinə uyğun hərəkət edən hüquqi şəxsdir.
3. Azərbaycan Ingilisdilli Universiteti birinci kateqoriyalı ali məktəblərə aid edilsin.

4. Universitetdə ilk qəbul 1991-ci ildə hərəsi 15-20 nəfərdən ibarət dörd qrupda "Iqtisadiyyat və menecment", "Beynəlxalq münasibətlər və siyasi elmlər", "Kompüterlər, statistika və riyazi elmlər", "Ekologiya" ixtisasları üzrə nəzərdə tutulsun. Gələcəkdə universitetdə "Biologiya", "Təbabət" və s. ixtsaslar üzrə də kadrlar hazırlamaq məqsədəuyğun sayılsın".

Azərbaycan Respublkası Nazirlər Kabinetinin 4 mart 1995-ci il tarixli 45№-li qərarından:

"Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Dövlət Ali Ekspert Komissiyasının rəyinə əsasən, qeyri-dövlət Xəzər Universiteti qeydiyyata alınsın..."

Elm və təhsil quruculuğu yollarında

* Professor Hamlet İsaxanlının yaratdığı Xəzər Universiteti təbiət elmləri və mühəndislik, iqtİsadiyyat və idarəetmə, hüquq, tibb, sosial-siyasi və humanitar elmlər sahəsində yüksək səviyyəli mütəxəssislər yetişdirməyi qarşısına məqsəd qoyan, verdiyi məzunluq diplomlarının beynəlxalq miqyasda tanınmasına nail olan mühüm elmi mərkəz və ali təhsil məbədidir.

* Xəzər Universitetində dərslər əsasən ingilis dilində tədris edilir. Bununla yanaşı, ingilis dilini zəif bilən və ya ingilis dili öyrənməmiş məktəb məzunları da Xəzər Universitetində oxuya bilərlər. Onlar məşhur xarici universitetlərlə birlikdə hazırlanmış xüsusi proqram üzrə ingilis dili öyrənməklə təhsilə başlayırlar.

* Universitetdə adi kurs və kursda qalmaq anlayışları yoxdur, tələbinin statusu onun müvəffəqiyyətlə imtahan verdiyi fənlərin sayı və "xüsusi çəkisi" ilə, burada qəbul olunmuş terminlə desək, qazandığı kreditlə müəyyən olunur.

* İmtahanlarda 100 ballıq sistem tətbiq olunur, 60 bal keçər bal sayılır.

* Müvəffəqiyyətlə oxuyan tələbələr öz təhsillərini ABŞ, Kanada, Böyük Britaniya, Fransa, Avstraliya və başqa ölkələrin ən yaxşı ali məktəblərində davam etdirmək imkanı qazanırlar.

* Xəzər Universitetinin məzunları ölkəmizdəki xarici şirkətlərdə və dünyanın başqa dövlətlərində yüksək maaşlı nüfuzlu vəzifələrdə çalışırlar.

* Professor, müəllim və elmi işçilərin bir qismi dünyanın qabaqcıl ali məktəblərindən dəvət edilənlər, digər qismi isə həmin elm-təhsil mərkəzlərində işləməyə və təcrübə qazanmağa göndərilənlərdir.

* Xəzər Universiteti dünyanın bir çox universitetləri ilə diplomların qarşılıqlı tanınması haqqında müqavilə bağlamış yeganə ali məktəbdir.

* Xəzər Universitetinin artıq İranda və Hindistanda filialları açılmışdır.

* Xəzər Universiteti Nəşriyyatında nəşr olunan çoxsaylı kitablar, jurnallar, tərcümə topluları beynəlxalq aləmdə yayılır, təmsil etdiyi ali təhsil ocağına və Azərbaycana hörmət qazandırır.

* Üçdilli (Azərbaycan, ingilis, rus dillərində) «Azərbaycan Araşdırmaları Jurnalı», «Azərbaycan Arxeologiyası», «Xəzər Riyaziyyat Jurnalı» elmi və «Xəzər Xəbər» elmi-kütləvi və ədəbi-bədii jurnalları burada nəşr olunur.

* Xəzər Universiteti bu gün təkcə elm və təhsil deyil, həm də milli mədəniyyətimizin çiçəklənməsinə öz töhfəsini verən incəsənət ocağı və idmanımızın müxtəlif növlərini inkişaf etdirən sağlamlıq müəssisəsidir.

* Milli ədəbiyyat və mədəniyyətimizin nəhəng simaları haqqında aparılan sanballı elmi tədqiqatlar, klassiklərimizin və müasir sənət adamlarımızın həyat və yaradıcılıqlarına həsr olunan və yüksək səviyyədə təşkil edilən təqdimatlar və elmi toplantılar, görkəmli elm, ədəbiyyat və incəsənət xadimlərimizin iştirakı ilə keçirilən unudulmaz görüşlər, milli və beynəlxalq rəqslər, muğam və klassik musiqi gecələri bu ali təhsil ocağını sözün həqiqi mənasında qədirbilən ziyalılarımızın böyük həvəslə üz tutduqları müqəddəs ziyarətgaha çevirmişdir.

* Universitetdə rəngarəng və maraqlı tələbə həyatı yaşanır. Burada xor, rəqs və vokal ansamblları, audio-video fonoteka, futbol, basketbol, voleybol, şahmat, dzü-do, dama, nərd və başqa idman növlərini özünə birləşdirən klub, trenajor zalı və s. fəaliyyət göstərir.

* Xəzər Universitetinin Azərbaycanda və xaricdə məşhur olan Mahnı və Rəqs Ansamblı Av-

ropada, Gürcüstanda, Türkiyədə və ərəb ölkələrində təşkil olunmuş festivallarda uğurla çıxış edib, ölkəmizə mükafatlarla qayıdıb.

* Xəzər Universitetinin peşəkar futbol, basketbol, şahmat komandaları müxtəlif miqyaslı idman yarışlarında mühüm uğurlar qazanıb və bu ali təhsil müəssisəsinin adını daha da şərəfləndirib.

* Fərəhli haldır ki, Azərbaycan ali məktəblərinin tarixində ilk dəfə məhz Xəzər Universitetinin futbol klubu peşəkar komandalar arasında özünü təsdiqləmiş və ölkə milli çempionatının güclülər dəstəsində uğurla yarışaraq həmişə ön sıralarda olmuşdur.

* Xəzər Universitetinin basketbol komandası yüksək liqaya çıxmış, müxtəlif səviyyəli yarışları qalib kimi başa vurmuşdur.

* Xəzər Universiteti yarandığı ilk gündən Xətai rayonundakı 3 saylı uşaq evinə himayədarlıq edir. Həmin uşaq evində böyümüş bir neçə tələbə Xəzər Universitetində ödənişsiz təhsil almışdır.

* Uşaq evinin 6 sakininə bütün zəruri ehtiyacları ödənilməklə toy mərasimi keçirilmişdir.

* Bilgəhdəki «Qocalar evi», eləcə də Nizami rayonunda yaşayan tənha və kimsəsiz qocalar, ağsaqqallar, müharibə veteranları, Qarabağ əlilləri, şəhid ailələri müntəzəm olaraq Xəzər Universitetinin nəzarətindədir.

* SOS cəmiyyətinin «Dünya» məktəbində təhsil alan şagirdlərinə xüsusi qayğı göstərilir.

* Kar və zəif eşidən uşaqların məktəbəqədər tədris müəssisəsinin maddi bazası Xəzər Universitetinin hesabına yeniləşdirilmişdir.

Xəzər Universitetinin qurucusu və rektoru professor Hamlet İsaxanlının "Xəzər"in sorağında" əsərindən seçmələr

...1990-cı ilin ortalarından başlayaraq "Xəzər" mələk libaslı bir arzu, bir xəyal, bir istək idisə, həmin ilin axırlarında göylərdən yerə enməkdə olan bir pəri füsunkarlığı ilə gözümüzü qamaşdırmağa başlamışdı. 1991-ci ilin yaz ayları universitəmizin kağız üzərində yaranmasına təsadüf etdi; gözəl pəri öz mübarək qədəmləri ilə bizi sevincə bürüdü.



Eyni zamanda həyatımızı qısqanclıqlar, badalaq qurmalar və açıq zərbələrlə "bəzəməyi" yaddan çıxarmayanlar da vardı. 1991-ci ilin payızında Xalq Təhsili Nazirliyinin və Xalq Təsərrüfatını İdarəetmə İnstitutunun "xeyir-duası" ilə hazırlıq şöbəsində ilkin tədrisə başladıq. 1992-ci il fevral ayının ortalarında isə Əhmədli qəsəbəsində yerləşən 240 saylı uşaq bağçasında məskən saldıq. Xəzər Universiteti ilk körpəlik dövrünü bu binada keçirdi, körpəliyə xas olan məsumluq və səmimilik burada bizi qoynuna alıb isitdi, rahat gülüş və sevinc anları bu binada yaşandı.

Sonralar Xəzər Universiteti daha bir neçə dəfə yeni binalara üz tutacaqdı, bir neçə il səyyar ali məktəbə çevriləcəkdi, lakin xoş körpəlik xatirələri məhz bu bağça-universitə ilə bağlı olacaqdı...

* * *

...Universitetimizin hazırlıq şöbəsinə tələbə qəbulunu aparmaq üçün müxtəlif ali məktəblər və Elmlər Akademiyasından 8 müəllim dəvət

edərək imtahan komissiyası yaratdıq. Ən ehtiyat etdiyimiz məsələ tələbə qəbulu haqqındakı elanımıza inamın olub-olmayacağı idi, artıq bir dəfə iyun ayında verdiyimiz elanları Xalq Təhsili Nazirliyi ləğv etmişdi və indi "yalançının tayası yansa da inanmayacaqlar" fikri bizi intizarda saxlayırdı.

Cəmi 15-20 nəfər dinləyici götürəcəyimizi bildirmişdir və bir həftə içində 51 gənc oğlan və qız müsabiqədə iştirak etmək üçün öz sənədlərini bizə təqdim etdilər. İqtisadiyyat-menecment ixtisası və beynəlxalq münasibətlər-siyasi elmlər ixtisasının hər biri üzrə 16, riyaziyyat və kompüter elmləri üzrə 10, tibbi ekologiya üzrə 9 nəfər müsabiqədə iştirak etdilər. Onlardan 23-ü orta məktəbi Bakı şəhərində, 28-i isə digər yerlərdə (23 müxtəlif bölgədə) bitirmişdilər, bir nəfər qızıl, iki nəfər gümüş medal almışdı, beş nəfər məktəbdə ingilis dili keçməmişdi. İngilis dilindən hamı, riyaziyyatdan isə beynəlxalq münasibətlər-siyasi elmlər xaricində hər kəs imtahan edildi. Əlavə olaraq iqtisadiyyat-menecmentdə coğrafiya, tibbi ekologiyada biologiya və beynəlxalq münasibətlər-siyasi elmlərdə tarix imtahanları keçirildi.

Oktyabrın 17-də imtahanlar bitdikdən sonra qəbul komissiyasının protokoluna əsasən hazırlıq şöbəmizə 20 nəfər tələbə qəbul etdik. Onlardan biri tezliklə dərslərə gəlmədiyi üçün xaric edildi.

Bu ilk 19 tələbəmizin əksəriyyəti universitetimizi bitirdilər (6-sı fəxri diplomla), bir qismi tələbə mübadiləsi yolu ilə Amerika və Avropada oxudular. Hal-hazırda onlar yaxşı iş yeri ilə təmin olunmuş və bəziləri magistr-tələbə kimi təhsillərini də davam etdirirlər...

***

...Türkiyədə keçirdiyim rəngarəng günlərin təsviri xüsusi bir yazıya mövzu ola bilərdi. Marmara Universiteti rektorluğu ilə ilkin tanışlıqdan sonra "İqtisadiyyat və idarəetmə elmləri" fakültəsində ali riyaziyyat ("Calculus"), Mühəndislik fakültəsi magistraturasında isə əməliyyatların tədqiqi ("Operations Research") dərslərini deməyəbaşladım. Sərbəst günlərimi əsasən dekanlar, bölüm başkanları və müəllimlər arasında keçirir, universitetin "iç həyatını" anlamağa çalışırdım.

Noyabrın 9-da Türkiyə hökuməti Azərbaycan Respublikasını müstəqil dövlət kimi tanımaq hanqqında qərar qəbul etdi. Həm Türkiyə, həm də Azərbaycan sevinc içərisində idi.

Bu arada Bakıda mənə qarşı yeni, lakin əvvəlkilərin təbii davamı olan "cəza" tədbiri görüldü.

Mən bu xəbəri soyuqqanlıqla qarşıladım, gerçəkdən narahatçılıq üçün dərin səbəb görmürdüm.

Dərslərimi deməklə yanaşı, ünsiyyətdə olduğum türklərin Azərbaycana sonsuz marağını ödəməyə çalışır, təkrarlanan və səthi siyasi görüşlərin yoruculuğunu isə təbiətlə tək-təkə qalmaq və ya kitablarla dostlaşmaq hesabına unudurdum. Universitetlə bağlı fikirlər isə gündəlik həyatımın havası, suyu idi; ağlagəlməz məsələlər ağlıma gəlirdi. Bir əlim gerçəklikdən yapışmış, o biri əlim "göylərdən ulduz qoparırdı". Bu fikir dalğasının üzə çıxardığı sözlərdən biri isə "Xəzər" oldu. Universitetimizin adı "Xəzər" olacaq! Türkiyədə Kara deniz, Ak deniz (Aralıq dənizi), Egey və Marmara adlı universitetlər var, nə üçün Xəzər Universiteti olmasın? "Xəzərimin sahilində əzəmətli Bakımda" məskən salacaq Xəzər Universitetim! Təbiətin yaratdığı bu əsrarəngiz Xəzər kimi gözəl və zəngin olacaq Xəzər Universitetim...

Ürək sözləri

İlk özəl ali təhsil məktəbi olaraq sizin universitet özünə möhkəm yer etmiş, Azərbaycanın tarixləri zəngin olan məşhur universitetlər sırasına daxil olmuşdur.

Hafiz Paşayev,
Azərbaycanın ABŞ-dakı səfiri

* * *

Mən inanıram ki, Xəzər Universitetinin bünövrəsi möhkəmdir. "Xəzər" Azərbaycan təhsil sistemi tarixinə tərcümə, bazar münasibətləri, biznes, idarəetmə, iqtİsadi məhsuldarlıq sahələrində öz üstünlükləri olan şərəfli bir töhfədir.

Main Afza,
Blumenborq Universiteti, ABŞ

* * *

Qərblə Şərqin mənəvi-intellektual sintezi kimi Xəzər Universiteti geniş miqyasda tanınıb. Müasir məzmunlu təhsil ocağı olaraq diqqəti özünə çəkir. Buraya yüksək səviyyəli alim-müəllim kollektivi cəlb edilib. Azərbaycanlı alimlər burda xarici müəllimlərilə yaradıcı əməkdaşlıq edirlər. Xəzər Universitetində elmi işlər üzərində ciddi çalışmağa fikir verilir. Xüsusən elmi jurnalların nəşri daima diqqət mərkəzində durur. Azərbaycan tarixinə aid tədqiqatlar isə ayrı əhəmiyyətə malikdir. Bunu universitetin milli rəmzi kimi şərh etmək olar.

Bu təhsil ocağının uğurları hər birimizi qəlbən sevindirir.

Camal Mustafayev
Professor

* * *

Hamlet İsaxanlının tə`sis etdiyi, inkişaf etdirdiyi Xəzər Universiteti bənzərsizdir, Azərbaycanda isə yaxın ölkələrdə ən yüksək səviyyəli elm və təhsil ocağı kimi məşhurlaşmışdır.

Mirabbas Qasımov
Akademik

* * *

Filosoflar və jurnalistlər Xəzər Universitetinə tə`riflər yazmalıdırlar, çünki bu Universitə həqiqətən insan ruhunun yüksəkliyinin əyani təsdiqidir.

Vilyam Q.Roy, ABŞ

* * *

Məşhur və çox hörmətli Xəzər Universiteti yüksək keyfiyyətli təhsil və elm standartlarına uyğun müstəqil təhsil sisteminin önündə gedən bir bayraqdardır.

Ercan Kurbanov
Doktor, Merilend Universiteti

* * *

Azərbaycanda olduğum müddətdə mən bir neçə universitədə mühazirələr,oxumuşam, lakin Xəzər Universiteti onlardan mənə ən doğması və ən yaxınıdır. Xüsusilə, "Xəzər"in rektorunun demokratik fikirlərindən, nikbin perspektiv planlarından olduqca razıyam.

Nairə Tohidi
Professor, Kaliforniya Universiteti (ABŞ)
Yaxın Şərq Araşdırmaları Mərkəzi

* * *

Mənim şübhəm yoxdur ki, Sizin *(Hamlet İsaxanlı – red.)* rəhbərliyiniz altında "Xəzər" regionda ən yaxşı ali məktəbə çevriləcəkdir. Sizin ətraf gerçəkliyi başa düşməyiniz, liderliyiniz, iti mühakimləriniz uğur qazanmaq üçün əsas göstəricilərdir. Əgər biz MBA proqramının həyata keçməsinə kömək etsək, bu bizim üçün çox böyük nailiyyət ola bilər.

Biz Xəzər Universiteti ilə fəxr edirik və düşünürük ki, bu əlaqələrimiz qarşılıqlı fayda verəcəkdir.

Yezdi Bxada
Doktor, Corciya Dövlət Universiteti,
ABŞ

* * *

Gələcəkdə yollar məni hara aparırsa-aparsın, mən Xəzər Universitetini qəlbimdə yaşadacağam.

Kristal Haus,
AbŞ

* * *

Məlumdur ki, bu gün Azərbaycanda çoxpilləli təhsil sisteminə keçilsə də bu sahədə dünya təcrübəsində olan tədris plan-proqramları tam qəbul edilməyib. Bu da əlavə problemlər yaradır.

Onu da deyim ki, bəzən ali məktəblər 4+2 sistemini (bakalavr və magistr təhsili) dünya praktikasına tam uyğun şəkildə uğurla həyata keçirirlər. Məsələn, 1998-ci ildə Azərbaycanın ən yaxşı ali məktəbi hesab edilmiş Xəzər Universitetinin fəaliyyəti bu baxımdan diqqətəlayiqdir. Amerika tipli bu ali məktəbdə kredit sistemi mövcuddur ki, o da semestr ərzində tələbənin fəallığını, dərsə davamiyyətini, hazırlıq səviyyəsini və s. düzgün qiymətləndirməyə imkan verir.

Qeybulla Qeybullayev
Professor

* * *

Xəzər Universiteti çox orijinal qurulub. O, şablon, standart yolla getmir.

Bəxtiyar Vahabzadə
Xalq şairi

Наука и образование

Система образования в Азербайджане самая коррумпированная в СНГ


В Азербайджане система образования более коррумпирована, чем в других странах СНГ. Об этом заявила кандидат психологических наук, председатель общественной организации "Центр психологии" (ЦП) Светлана Меджидова на презентации проекта "Коррупция в системе образования: состояние, причины, пути решения", передает ИА "Новости-Азербайджан".

Как отметила Меджидова, этот вывод был сделан на основе результатов опроса, проводимого в рамках данного проекта. "Этот проект относится к исследовательским проектам в области образования. Основной упор делается на субъективные факторы", - заявила она.

По словам председателя ЦП, целью исследований является выявление субъективных и объективных факторов, препятствующих решению проблемы коррупции в сфере образования и разработка рекомендации по борьбе с ними.

"В ходе исследований центр провел опросы среди родителей, учащихся, студентов и преподавателей в Гяндже, Баку, Сумгайыте, Исмаиллы, Джалилабаде и в Уджаре. В результате опроса были сделаны следующие предварительные выводы: около 60% населения считает, что в системе образования уровень коррупции за последние 5 лет значительно повысился, 50% учителей берут взятки. Единственный вуз, в котором нет коррупции - это университет "Хазар", - говорит Меджидова.

Как отметила Меджидова, в результате опроса было выявлено, что в общеобразовательных школах до сих пор наблюдаются денежные сборы с учащихся, "хотя представители Минобразования уверяли население, что с этим будет покончено".



"Главной причиной взяточничества в образовательных учреждениях является низкая заработная плата преподавателей. 47% населения виновником коррумпированности системы образования считают государство. Коррупция разрушает нашу систему образования, поэтому ее необходимо искоренять", - отметила председатель "Центра психологии". По результатам опроса, система образования наиболее коррумпирована в вузах, и наименее - в Госкомиссии по приему студентов.

"Это только первоначальные результаты, окончательные итоги опроса будут известны только к концу текущего года. И на основе этих результатов будут выпущены брошюры, видеоматериалы", - отметила Меджидова.

Данный проект разработан и реализуется при поддержке журнала "Абитуриент", по заказу Министерства юстиции, ЮНИСЕФ, ООН, Госкомиссии по приему студентов и Института Открытое общество - Фонда Сороса.

"Кавказский узел"

ƏRİZƏ QƏBULUNA BAŞLANIR

Ali məktəblərə və orta təhsil bazasından orta ixtisas təhsili müəssisələrinə ərizə qəbuluna başlanır

Tələbə Qəbulu üzrə Dövlət Komissiyasında (TQDK) 2008/2009-cu tədris ili üçün respublikanın ali məktəblərinə və orta təhsil bazasından orta ixtisas təhsili müəssisələrinə qəbul imtahanlarında iştirak etmək üçün ərizə qəbulunun başlanmasına həsr olunmuş mətbuat konfransı keçirilmişdir.

TQDK-nın sədri Məleykə Abbaszadə ətraflı məlumat verərək bildirmişdir ki, abituriyentlər martın 31-dən mayın 31-dək internet vasitəsilə elektron ərizələrini doldurmalı, bundan sonra sənəd qəbulu komissiyalarına (SQK) tələb olunan sənədləri təqdim edərək, aprelin 11-dən mayın 31-dək ərizələrini təsdiq etdirməlidirlər.

Azərbaycan Respublikasının vətəndaşlarından ərizə qəbulu internet vasitəsilə aşağıdakı qaydada aparılır:

Abituriyentlər əvvəlcə "ödəmə kartı" əldə edirlər. Bundan sonra şəxsiyyət vəsiqəsindən (nömrəsindən və PİN kodundan) və "Ödəmə kartı"ndan (iş nömrəsindən və şifrindən) istifadə etməklə, TQDK-nın internet saytının müvafiq səhifəsinə ***(www.tqdk.gov.az/ali2008)*** daxil olur və "Abituriyentin elektron ərizəsi" formasını doldururlar.

Azərbaycan və rus bölməsinin abituriyentləri tələb olunan sənədləri SQK-lara təqdim etməklə ərizələrini təsdiq etdirirlər.

Xarici dövlətlərin vətəndaşları tələb olunan sənədləri aprelin 11-dən mayın 31-dək TQDK-da yaradılmış SQK-ya təqdim etməklə "Abituriyentin ərizəsi"nin kağız formasını doldururlar.

Xüsusi təyinatlı ali təhsil müəssisələrinə daxil olmaq istəyənlər isə sənədlərini müvafiq nazirlik və idarələrin müəyyənləşdirdiyi qaydalara əsasən təqdim edirlər.

M.Abbaszadə bildirmişdir ki, müvafiq qəbul qaydalarına əsasən, abituriyentlərin qəbul imtahanlarında topladıqları ballar elan edildikdən sonra qəbul planına daxil olan ixtisaslar siyahısından internet vasitəsilə ixtisas seçimi aparılır.

İxtisas seçimində aşağıdakı müsabiqə şərtlərini ödəyən abituriyentlər iştirak edə bilərlər:

I və IV ixtisas qruplarında müsabiqəyə ümumi balı 250-dən, digər qruplarda isə 300-dən az olmayan abituriyentlər buraxılırlar. Bu zaman abituriyentin hər bir imtahan fənni üzrə ayrılıqda topladığı nisbi balı 10-dan az olmamalıdır.

Azərbaycan bölməsində III qrupun DT altqrupunda xarici dil fənninə nisbi bal məhdudiyyəti qoyulmur.

Ümumi balı 350 və daha çox olan abituriyentlərin müsabiqəyə buraxılmaları üçün onların fənlər üzrə cavablarına nisbi bal məhdudiyyəti tətbiq edilmir.

Ali məktəblərə və orta təhsil bazasından orta ixtisas təhsili müəssisələrinə ərizə qəbulu ilə bağlı elanın tam mətni, o cümlədən abituriyentin elektron və kağız formalı ərizələrinin nümunələri və onların doldurulma qaydaları, azərbaycanlı gənclərin Türkiyə universitetlərinə qəbulu haqqında elan "Abituriyent" jurnalının 2-ci nömrəsində dərc edilmiş və TQDK-nın internet saytında ***(www.tqdk.gov.az)*** verilmişdir.

TÜRKİYƏ UNİVERSİTETLƏRİNƏ TƏLƏBƏ QƏBULU

Tələbə Qəbulu üzrə Dövlət Komissiyası (TQDK) və Türkiyənin Azərbaycandakı səfirliyinin təhsil müşavirliyi Türkiyə universitetlərinə tələbə qəbulu elan edib

TQDK-nın məlumatına görə, ərizələrin qəbulu martın 30-dan aprelin 12-dək saat 10-dan 17-dək Azərbaycan Texniki Universitetində, Azərbaycan Memarlıq və İnşaat Universitetində, TQDK-nın Naxçıvan regional şöbəsində, Gəncədəki Azərbaycan Kənd Təsərrüfatı Akademiyasında, Sumqayıt Dövlət Universitetində və Lənkəran Dövlət Universitetində aparılacaq.

İmtahanda iştirak etmək istəyənlər şəxsiyyət vəsiqəsini (16 yaşına çatmamış gənclər isə doğum haqqında şəhadətnamənin əslini), orta məktəbi bitirmək haqqında attestatın əslini, yaxud hazırda 11-ci sinifdə təhsil aldıqları haqqında arayış, 3x4 sm ölçüdə 2 ədəd fotoşəkil təqdim etməklə vahid ərizə formasını şəxsən doldurmalıdırlar.

Ali məktəbdə təhsil alan tələbələr Türkiyə universitetlərinə ərizə vermək hüququna malik deyil.

Bu il Azərbaycan gənclərinə Türkiyənin nüfuzlu 11 universitetində 20 ixtisas üzrə təhsil almaq üçün 37 yer ayrılıb. Bunların arasında Ankara Universiteti ("Siyasi elmlər və beynəlxalq əlaqələr", "Kompüter mühəndisliyi" ixtisası və s.), Boğaziçi Universiteti ("Siyasi elmlər və beynəlxalq əlaqələr" ixtisası), İstanbul Universiteti ("Maliyyə", "Elektrik-elektronika mühəndisi" ixtisası və s.), Orta Doğu Texniki Universiteti ("Elektrik-elektronika mühəndisi"), Egey Universiteti ("Tibb" ixtisası), İstanbul Texniki Universiteti ("Neft və təbii qaz mühəndisliyi" ixtisası), Mərmərə Universiteti ("Bank işi", "Sığorta işi" ixtisasları), Hacəttəpə Universiteti ("Amerika mədəniyyəti və ədəbiyyatı" ixtisası) və başqaları var.

SÜRƏTLİ İNTERNET

2010-cu ilədək Avropa İttifaqının bütün məktəbləri yüksək sürətli internetlə təmin edilməlidir

2010-cu ilədək Avropa İttifaqına (Aİ) üzv ölkələrinin bütün məktəbləri yüksək sürətli internetlə təmin edilməlidir. Bu barədə hazırda Aİ-də sədrlik edən Sloveniyanın Baş naziri Yaneş Yansa bəyan edib. Onun sözlərinə görə, bu məsələni, Aİ sammitinin iştirakçıları bu yaxınlarda Brüsseldə keçirilən ilk plenar iclas zamanı qarşıya qoyublar.

Avropa iqtisadiyyatını rəqabətə ən davamlı iqtisadiyyata çevirmək məqsədini daşıyan "Lissabon strategiyasından" danışan Baş nazir bildirib ki, ümumilikdə Aİ ölkələri üzrə 2005-ci ildən etibarən dövlət büdcəsi defisitini iki dəfə azaltmaq mümkün olub, eləcə də 6,5 milyondan çox yeni iş yerləri açılıb.

Mədəniyyət

Mənəvi dəyərlərimizə qayğı

Nəriman Nərimanovun və Cəlil Məmmədquluzadənin Tbilisidəki ev-muzeyləri Azərbaycanın Mədəniyyət və Turizm Nazirliyinin mülkiyyətinə keçirilmişdir

Xalqımızın mütəfəkkir oğulları Nəriman Nərimanovun və Cəlil Məmmədquluzadənin Tbilisi şəhərində yerləşən ev-muzeyləri Azərbaycan Mədəniyyət və Turizm Nazirliyinin mülkiyyətinə keçirilmişdir.

Xatırladaq ki, ümummilli lider Heydər Əliyev Azərbaycan-Gürcüstan əlaqələrinin inkişafına, daha da dərinləşdirilməsinə, qonşu ölkədə yaşayan soydaşlarımızın problemlərinin həllinə və Gürcüstan ərazisində yerləşən maddi-mənəvi dəyərlərimizin qorunub saxlanılmasına daim diqqət və qayğı göstərirdi. Bu baxımdan Heydər Əliyev N.Nərimanovun və Mirzə Cəlilin Tbilisidəki ev-muzeylərinin himayəyə götürülməsi barədə vaxtilə Şəmkir Rayon İcra Hakimiyyətinin rəhbərliyinə xüsusi tapşırıq vermişdi. Nəticədə ev-muzeyləri özəlləşdirilərək, yüksək səviyyədə təmir olunmuş, eksponatlar, texniki avadanlıq müasirləşdirilmiş, maliyyə məsələləri həll edilmişdi.

Ölkəmizin Gürcüstandakı səfiri Namiq Əliyev məktubunda həmin ev-muzeylərinin artıq rəsmən Azərbaycan Mədəniyyət və Turizm Nazirliyinin mülkiyyətinə keçirildiyini təsdiqləmiş və onları nazirliyə bağışladığına görə kənd təsərrüfatı nazirinin müavini Aslan Aslanova təşəkkürünü bildirmişdir.

"Füyuzat"ın ikinci nəşri

Bu günlərdə "Çaşıoğlu" nəşriyyatında milli mədəniyyətimizin böyük abidəsi olan "Füyuzat" məcmuəsinin ikinci nəşri çap olunmuşdur

Məcmuənin çap olunmuş nüsxələrini tanınmış alim, ədəbiyyatımızın yorulmaz tədqiqatçısı filologiya elmləri namizədi Ofeliya Bayramlı toplayaraq transliterasiya etmiş və nəşrə hazırlamışdır.

Kitabın redaktorları akademik Bəkir Nəbiyev və filologiya elmləri doktoru Teymur Kərimlidir. Filologiya elmləri namizədi Ofeliya Bayramlının yuxusuz gecələri və böyük zəhməti sayəsində ərsəyə gələn bu kitabda Ə.Hüseynzadənin baş mühərrirliyi və H.Z.Tağıyevin maddi vəsaiti ilə 1906-1907-ci illərdə nəşr olunan "Füyuzat" məcmuəsinin 32 sayı toplanaraq çağdaş latın əlifbasında yenidən nəşr olunmuşdur. Bu məcmuə XX əsrin əvvəllərində Azərbaycan və türk xalqlarının siyasi, ədəbi fikrinin ən möhtəşəm abidəsidir. "Füyuzat" bu mövqeyini yeni əsr üçün də qoruyub saxlamışdır.

Tərtibçi O.Bayramlı kitaba yazdığı ön sözdə "Füyuzat"ın yeni nəşrinin zəruriliyini belə əsaslandırır: "Doğrudur, uzun yasaqlardan sonra son illərdə Ə.Hüseynzadənin irsi Azərbaycanda çap olunmuş və onun haqqında bir çox dəyərli əsərlər yazılmışdır. Lakin o da etiraf olunmalıdır ki, XX əsrin əvvəllərində onun başçılıq etdiyi ədəbi-siyasi hərəkatı öyrənmək üçün görülən bu işlər hələ azdır. Çünki həm vaxtilə sovet rejimi dövründə Ə.Hüseynzadənin və "Füyuzat"ın yasaqlığı ilə onun banisi olduğu turançılıq, türkçülük, azərbaycançılıq ideyaları haqqında deyilmiş bəzi köhnə qənaətlərin müəyyən izləri qalmaqdadır, həm də bu böyük insanın adı ilə bağlı milli istiqlal, milli özünüdərk, "türkləşmək, islamlaşmaq, avropalaşmaq" məqamları bəzən başqa ideoloqlara aid edilir. Bu kimi hallarla razılaşmaq olmaz. Məhz bu səbəblər "Füyuzat"ı yenidən nəşr etmək vəzifəsini zəruriləşdirir."

Beləliklə, aydın olur ki, tərtibçini də "Füyuzat"ın ərəb əlifbasından latın əlifbasına transliterasiya edilib çap olunmasına sövq edən əsas amil belə bir ehtiyacdan yaranmışdır. Jurnalın nüsxələrini milli-mənəvi abidə kimi qorumaq, ömrünü uzatmaq məqsədilə transliterasiya və çap etmək kimi nəcib və vacib işi öz öhdəsinə götürən O.Bayramlı bunun öhdəsindən uğurla gəlmişdir.

Müəllif bir il fəaiyyət göstərən, cəmi 32 nömrədən ibarət olan məcmuəni bir nəşrdə toplayaraq 492 səhifəlik bir kitab kimi çap etdirməyi daha münasib və lazım bilmişdir. Məqsədi XX əsrin əvvəllərində Ə.Hüseynzadənin "Füyuzat"la yaratdığı ədəbi, siyasi hərəkatın bütöv panoramını müasir nəsillərə çatdırmaqdır.

Transliterasiyada mətnlərdə olduğu kimi, rəsmlərdə də tərtibçi tərəfindən ixtisar aparılmamışdır. Çünki "Füyuzat"da verilən şəkillər məcmuənin məsləkini təbliğ edən mətnlərlə vahid kompleks təşkil edir.

Ofeliya Bayramlı kitaba "Milli mədəniyyətimizin böyük abidəsi" adlı giriş yazmışdır. Burada tərtibçi Ə.Hüseynzadənin baş redaktorluğu ilə çap olunan "Füyuzat" məcmuəsində çap olunmuş məqalələrin geniş və hərtərəfli təhlilini verərək Ə.Hüseynzadənin "ittihada doğru tərəqqi" proqramının sxemini tərtib etmişdir.

Ümid edirik ki, "Füyuzat"ın transliterasiya nəşri, bu böyük mədəniyyət abidəsinin əsl tarixi və müasir ideya əhəmiyyətinin və onun bir çox başqa məziyyətlərinin öyrənilib üzə çıxarılmasına, layiqincə işıqlandırılması işinə kömək edəcəkdir.

Milli-mənəvi mədəniyyətimizin böyük abidəsi olan "Füyuzat"ın yenidən çap olunması təqdirəlayiqdir. Yaradıcılığının məhsuldar çağında dünyasını dəyişən ədəbiyyatşünas alim Ofeliya Bayramlının tərtib etdiyi bu kitab yalnız Azərbaycan xalqı üçün deyil, bütün türk xalqları üçün böyük bir töhfədir.

MÜĞƏNNİ RÖYA UNİVERSİTETDƏN QOVULUB

Bakı Dövlət Universitetinin beynəlxalq hüquq fakültəsinin dekanı: "Tam məsuliyyətlə deyirəm ki, Röya hazırda bizim tələbəmiz deyil"

"Müğənni Röya dərsə davamiyyəti olmadığı, sessiyaya gəlmədiyi və akademik borcları səbəbindən 2006-cı ildə Bakı Dövlət Universitetindən qovulub. Mən dekan kimi tam məsuliyyətimlə deyirəm ki, o, hazırda bizim tələbəmiz deyil".

Bunu Bakı Dövlət Universitetinin Beynəlxalq hüquq fakültəsinin dekanı Zeynal Həsənalıyev deyib. Onun sözlərinə görə, bu barədə olan bütün sənədlər, əmrin surəti məhkəməyə təqdim olunub, Röyanın hələ də BDU-nun tələbəsi olması barədə deyilənlər isə əsassızdır: "Qanuna görə, sessiyaya gəlməyib qiymət almayan tələbə universitetdən xaric olunur. İndi məlumatlar yayılır ki, guya o, birinci təhsil almayıb, qanunsuz olaraq ikinci ali təhsilə qəbul edilib. Bunlar yalandır, elə deyil. O, həqiqətən Rusiyada birinci ali təhsil alıb. Biz bununla bağlı Rusiyaya sorğu göndərmişik, məktublara dəqiq cavablar gəldi ki, həqiqətən o, universiteti bitirib".

Röyanın BDU-da ikinci ali təhsil aldığını deyən Z.Həsənalıyev müğənninin BDU-ya köçürülməsi ilə bağlı deyilənlərin də yalan olduğunu vurğulayıb: "Röya BDU-ya ikinci ali təhsilə qəbul edilib".

BDU-nun rektoru Abel Məhərrəmovun bir neçə gün əvvəl Röyanın universitetdə təhsil alması, az sonra isə onun ali məktəbdən xaric olunması barədə ziddiyyətli fikirlərinə gəldikdə, dekan deyib ki, rektor Röyanın BDU-da təhsil alması barədə fikir bildirə bilməz: "Çünki bütün əmrlərə Abel müəllim özü qol çəkir, Röyanın xaric olunmasından da xəbəri var".

Dekan müğənninin yenidən universitetə bərpa olunmasını da mümkün sayıb: "O, ərizə ilə müraciət etsə, bərpa oluna bilər. Bəlkə də heç Röyanın xəbəri olmayıb ki, xaric edilib. Çünki dərsə gəlməyib, təhsili ilə maraqlanmayıb və məsələdən xəbərsiz olub".

BDU-nun tədris şöbəsinin müdiri Vüsət Əfəndiyev də APA-ya dekanın dediklərini təsdiqləyib: "Biz Röyanın xaric olunması ilə bağlı əmri məhkəməyə də təqdim etmişik və onun çıxarılması tam qanuni olub. Tələbənin çıxarılmasının qaydası odur ki, dekanlıq bununla bağlı təqdimat verir və səbəblər göstərir. Röya ərizə ilə müraciət edərsə, yenidən universitetə bərpa oluna bilər".

BDU-nun mətbuat xidmətinin rəhbəri Şərəf Cəlilli isə deyib: "Hazırda Bakı Dövlət Universitetinin 18 min tələbəsi var, onlardan biri də Röya olsa, dünya dağılmır ki? İndi nə edək ki, Röya da universitetə daxil olub? Röya Beynəlxalq hüquq və beynəlxalq münasibətlər fakültəsində beynəlxalq hüquq ixtisası üzrə təhsil alır. Deyirlər ki, Röya iki il əvvəl universitetdən xaric olunub..."

Təhsil naziri Misir Mərdanov müğənni Röyanın BDU-dan xaric olunması məsələsinə münasibət bildirərkən deyib: "Müğənni Röya ilə şəxsən tanışlığım yoxdur. Amma bu yaxınlarda telekanalların birində onun çıxışına baxdım. Röya sərrast danışığı ilə mənə bilikli adam təsiri bağışladı... İkinci ali təhsil ödənişlidir. Mənim məlumatıma görə, Röyanın da birinci ali təhsili olub, Bakı Dövlət Universitetində ikinci ali təhsil alırmış. Bəzi adamlar onun imtahan verə bilmədiyinə görə universitetdən çıxarıldığını deyirlər. Bunu dəqiqləşdirmək lazımdır".

M.Mərdanov həmçinin müğənnin BDU-dan çıxarılması və sonradan bərpa olunma ehtimalına da aydınlıq gətirib: "İstənilən şəxs, o cümlədən müğənni Röya ali məktəbdən müxtəlif səbəblərdən xaric edilə, sonra bərpa oluna bilər. Burada qanuna zidd heç nə yoxdur. Mən bu məsələni araşdırmamışam. Bir adamın ikinci təhsil alması bu qədər təhsil problemlərinin içində xırda şeydir".

Vəhşilik

ERMƏNİLƏR AĞDAM MƏSCİDİNİ TÖVLƏYƏ ÇEVİRİB

İşğal olunan ərazilərdə yüzlərlə abidə dağıdılıb

Bakı Mətbuat Mərkəzində "Doğru yol" və "Azərbaycan Birlik Təşkilatı" ictimai birliklərinin birgə təşəbbüsü ilə "İşğal edilmiş ərazilərdə məhv edilən islam abidələri" mövzusunda elmi-təcrübi konfrans keçirilib.

Konfransı giriş sözü ilə açan "Doğru yol" ictimai birliyinin rəhbəri Mürsəl Əliyev bildirib ki, XIX əsrdə Azərbaycan ərazilərinə köçürülən ermənilər hər zaman Azərbaycan abidələrini dağıtmağa cəhd ediblər.

Azərbaycanın işğal olunan əraziləri İslam abidələri ilə zəngin olub. Belə ki, bu yerlərdə 300-dən çox dini abidə olub. XIX əsrdə Şuşada 17, Cəbrayıl rayonunda 15, eləcə də Ağdam da və bir çox başqa kəndlərdə məscid və pirlər mövcud olub. Füzuli şəhərində Hacı Ələkbər, Qiyas-əd-Din və XVII əsrə aid məscidlər, Xocalı şəhərində yaşı 600-dən artıq olan qəbiristanlıq olub. Hazırda isə bu abidələr erməni işğalı altındadır.

"İşğal edilən ərazilərdə olan tarixi abidələrin mühafizəsi" ictimai birliyinin rəhbəri Faiq İsmayılov bildirib ki, 1800-cü ildən başlayaraq ermənilər Azərbaycana məxsus bütün abidələri məhv etməyə başlayıb. Onlar imkan tapan kimi qəbirləri, sənət nümunələrini tamamilə məhv ediblər.

At və qoçla bağlı heykəllərin yalnız azərbaycanlılara məxsus tarixi abidə olduğuna diqqət çəkən F.İsmayılov ermənilərin bu heykəlləri mənimsəyə bilmədiklərini və ona görə də bu tipdə olan abidələrin hər birini məhv etdiklərini bildirib. Birlik sədri bildirib ki, 2003-2005-ci illərdə abidələrin qorunması istiqamətində olan cəhdlər, XİN-in beynəlxalq təşkilatlara müraciəti sayəsində abidələrin heç olmasa olduğu kimi saxlanılması ilə bağlı atılan addımlar nəticəsini verib.

Natiq Laçın rayonunda olan və XII-XIV əsrə aid olduğu güman edilən Malik-Əydər abidəsinin tamamilə dağıdıldığını diqqətə çatdırıb.

F.İsmayılov Qərbi Azərbaycan ərazilərində də xeyli sayda abidələrin dağıdıldığını bildirib. O, deyib ki, Qərbi Azərbaycanda 1800 abidə qeydə alınıb. Bu ərazidə 35 məscidin tamamilə dağıdıldığı diqqətə çatdırılıb: "Yüzlərlə türbələrimiz və at-qoç totemlərimiz məhv edilib".

Daha sonra çıxış edən "Azərbaycan birlik təşkilatı"nın rəhbəri Hacı Namiq Babaxan bütün dinlərdə ibadət ocaqlarına hörmətlə yanaşıldığını, lakin ermənilərin buna belə əməl etmədiklərindən danışıb.

Tədbirin davamında işğal olunan ərazilərdə abidələrin 2003-2007-ci illərdə lentə alınan görüntüləri təqdim olunub.

Görüntülərdən də məlum olub ki, abidələr nəinki məhv edilib, eləcə mənəvi dəyərlərimiz ermənisayağı təhqirə məruz qalıb. Belə ki, ermənilər Ağdam məscidini heyvan tövləsinə çeviriblər.

Tədbirin sonunda iştirakçılar adından İslam Konfransı Təşklatına və islam ictimaiyyətinə ortaq mədəniyyətimiz olan dini abidələrin birgə müdafiəsinə səsləyən müraciət ünvanlanıb.

Tarix dərsi – tarixin dərsi

MART SOYQIRIMININ 90 İLLİK GÖZYAŞLARI

"Dənizdən dənizə böyük Ermənistan" xülyasını nəyin bahasını olursa-olsun gerçəkləşdirməyə çalışan ermənilər 200 ilə yaxındır ki, Türkiyə və Qafqaz türklərinə qarşı amansız soyqırımı siyasətini həyata keçirirlər. Çar Rusiyasının hərtərəfli yardımı ilə 19-cu yüzilliyin əvvəllərindən İrandan və Türkiyədən ermənilərin kütləvi şəkildə Qafqaza, o sırada Azərbaycana köçürülməsi bu ideyanın reallaşmasına xidmət edirdi.

1890-cı ildə "Daşnaksütyun" partiyası yaradıldı və erməni millətçiliyi alovlandı...

1905-1906-cı illərdə ermənilər Azərbaycanın Bakı, Gəncə, Qarabağ, Naxçıvan, Şirvan, Zəngəzur, İrəvan, Şuşa, Cavanşir, Cəbrayıl, Qaryagin və başqa bölgələrində azərbacanlıları vəhşicəsinə qətlə yetirdilər...

1918-1920-ci illərdə xalqımıza qarşı törədilən məqsədli soyqırımı daha qəddar xarakter aldı...

1948-1952-ci illərdə 150 mindən artıq azərbaycanlı sovet hökumətinin göstərişi ilə doğma yurdlarından – Qərbi Azərbaycan torpaqlarından (indiki Ermənistan ərazisindən) Azərbaycana və başqa yerlərə köçürüldü...

1988-ci ildə 200 mindən çox azərbaycanlı Ermənistandan zorla qovuldu...

1905-ci il qırğınının 100 illiyi sükutla ötüb keçdi...

1918-ci ilin mart soyqırımından düz 90 il keçir...

Bu sənədli yazını oxuyun, düşünün! Düşünün, oxuyun!

Unutqanlıqdan adamın bağrı yarılar, yarılmaz?...

Bakı qırğını

1918-ci il martın 18-dən 22-dək Bakı Sovetinin dəstələri və erməni hərbi alayları "Şura bayrağı" adı ilə 12 min nəfərdən çox azərbaycanlını məhv etdilər.

Martın 30-da yenidən başlayan döyüşlərə rəhbərlik etmək üçün Stepan Şumyanın başçılığı ilə Bakı Sovetinin İnqilabı Müdafiə Komitəsi yaradıldı. A.Çaparıdze, Q.Korqanov, İ.Suxartsov, S.Saakyan və Y.Yolçiyan komitəyə daxil edildilər. Saat 5-də Bakıda ilk atəş açıldı.

Bolşeviklərin və ermənilərin güclü hücumuna davam gətirə bilməyən və saysız-hesabsız itki verən azərbaycanlılar martın 31-də müqaviməti dayandırdılar. Əsl faciə də bundan sonra başlandı. Bakının yalnız azərbaycanlılar yaşayan "Məmmədəli" və "Zibilli dərə" məhəllələrinin sakinləri son nəfərinədək vəhşicəsinə öldürüldü. Vəhşiləşmiş əsgərlər qarşılarına keçən bütün adamları xəncərlə doğrayır, uşaqları gur ocaqlara tullayır, körpələri süngülərin ucuna keçirir, cavan qız-gəlinlərin namusuna və ləyaqətini ağlasığmaz şəkildə alçaldırdılar. Ermənilər 25 yaşlı bir gəlini diri-diri divara mıxlamış, onun 3 yaşlı uşağını tikə-tikə doğramışdılar...

Şəhər od-alov içində idi. "Dağıstan" mehmanxanası, "Kaspi", "Açiq söz" qəzetlərinin redaksiyaları, Müsəlman Xeyriyyə Cəmiyyətinin yerləşdiyi "İsmailiyyə" binası, bütün iştimai tikintilər, milli rəmzlər, mədəniyyət ocaqları yandırılmışdı...

Soyqırımı aprelin 2-si gecəyarıyadək davam etmişdi. Sağ qalanlar Bakını tərk edirdilər.

Üç gün davam edən qanlı qırğın zamanı təqribən 15-20 min azərbaycanlı qətlə yetirilmişdi...

Şamaxı qırğını

1918-ci il martın 14-də Əmirovun (Əmiryanın) komandanlığı ilə Şamaxıya bolşevik dəstələri göndərildi.

Martın 16-da məlum oldu ki, əsgərlər Şamaxıya hərəkət edərək yolboyu Ağdərə, Noxanlı, Qarxunlu və başqa kəndləri qarət etmiş, əhalini qırıb-çatmışlar.

Martın 17-də ermənilərin milli qoşunları Şamaxıya yetişmiş, dəhşətli vuruşma başlanmışdı.

Aprelin 3-dən 16-dək Şamaxı şəhərinin və ətraf kəndlərin müsəlman əhalisi böyük itki verdi. Sağ qalanlar Şamaxını birtəhər tərk etməyə məcbur oldular. Erməni milli dəstələrinin əməliyyatlarına Stepan

Şaumyanın köməkçiləri və ondan bilavasitə təlimat alan S.Salayev başçılıq edirdi.

Təkcə mart ayında Şamaxı qəzasının 58 kəndi Bakı Sovetinin erməni qoşunlarının vəhşiliyi nəticəsində dağıdıldı. Təxminən 7-10 min azərbaycanlı qanına qəltən edildi.

Əgər 1918-ci ildə Şamaxıda 15 min nəfər yaşayırdısa, 1921-ci ildə vur-tut 1700 sakin qalmışdı.

Quba qırğını

Quba qəzasında cəza dəstəsinə Stepan Şaumyandan səlahiyyət almış daşnak zabiti Hamazasp rəhbərlik edirdi.

Aprelda qəzanın 122 müsəlman kəndi dağıdılmışdı.

Mayın 1-də erməni hərbi dəstəsi Qubanı mühasirəyə aldı, şəhəri toplardan və pulemyotlardan atəşə tutdu. Şəhər işğal olundu, əhalinin əmlakı ilə keçirildi, 105 ev yandırıldı, bir sıra inzibati binalar tar-mar edildi, xeyli sakin vəhşicəsinə öldürüldü...

Sağalmayan yaralar

1918-ci ildə erməni cəza dəstələri Göyçay, Kürdəmir, Salyan, Lənkəran və başqa yerlərdə də soyqırımı siyasətini gerçəkləşdirməyə başlamışdılar.

Erməni milli şurası Hacıqabula, Salyana, Muğana və Lənkərana silahlı bolşevik dəstəsi yollamışdı. Bu dəstəyə oradakı 2 diviziyanı tərksilah etmək əmri verilmişdi. Əsgərlər içindən keçib getdikləri bütün müsəlman kəndlərini dağıdıb yerlə-yeksan edirdilər.

Astara top atəşinə tutulub qarət edildikdən sonra Xəzər dənizi sahilində – Qızılağac ilə Lənkəran arasında olan bütün kəndlər "Aleksandr Candar" paroxodundan top atəşinə tutulmuşdu.

Stopka Lalayevin quldur dəstəsi gecələr müsəlman evlərinə hücum edir, ev sahiblərinin silahını alır, özlərini möhkəm kötəkləyir, bir çox hallarda isə işgəncə ilə öldürürdülər.

Təkzibolunmaz faktlar

1917-ci ilin sonlarında general Andranikin 4-4,5 min nəfərlik vəhşi diviziyası Azərbaycanda işğalçılıq planlarını həyata keçirməyə başlamışdı.

Tərkibində 19 erməni, bir neçə rus və başqa millətlərin nümayəndələri, cəmi 2 azərbaycanlı (Məşədi Əzizbəyov və Mir Həsən Vəzirov) olan 26 Bakı komissarı erməni daşnaklarının xidmətində idi.

Bakı Sovetinin sədri Şaumyan eyni zamanda Qafqazın fövqəladə komissarı təyin olunmuşdu.

Mart qırğını ərəfəsində Bakıda Şaumyanın köməyi ilə ermənilərdən ibarət 20 min nəfərlik silahlı qüvvə toplanmışdı.

Qanlı faciədən dörd saat qabaq

"Hümmət" qazetinin 1918-ci il aprelin 1-də dərc etdiyi redaksiya məqaləsində göstərilir ki, doktor Nəriman Nərimanov "İsmailiyyə" binasında və "Təzə pir" məscidində mitinqlərdə olan əhvalatlardan xəbərdar olub tezliklə öz evində bir məclis çağırır. Onun dəvəti ilə Leninin Qafqazdakı səlahiyyətli komissarı Stepan Şaumyan da saat 12-də bu məclisə gəlir. Nərimanov gözlənilən təhlükədən narahatlığını təsirli şəkildə söyləyir, axırda üzünü Şaumyana tutub xahiş və yarvalışlarla təklif edir ki, bu işi sülh ilə qurtarsın.

Erməni riyakarlığı və hiyləgərliyi ilə "Doktor N.Nərimanovun sözlərinə bütün-bütünə şərik olduğunu" söyləyən Şaumyan azərbaycanlıların inamından sui-istifadə edərək, Caparidze vasitəsilə müsəlmanları arxayınlaşdırır və qırğını davam etdirir...

Qanlı rəqəmlərin dili ilə

1915-ci ildə ermənilər İrəvan quberniyasında 88 kənd dağıtmış, 1920 ev yandırmış və 131.970 kişi öldürmüşlər.

Bu dövrdə Qarabağda 150-dən çox müsəlman kəndi bütünlüklə məhv edilmiş, əhalinin çoxu amansızlıqla qətlə yetirilmişdir.

1918-1920-ci illərdə İqdır və Eçmiədzin (Üçmüəzzin) qəzalarında 60 kənd və oranın bütün kişiləri, Göyçə quberniyasında 22 kənd və 60 min nəfər, Yeni Bəyazıddə 84 kənd və 15 min nəfər, İrəvan qəzasında bütün kəndlər, Sürməli qəzasında 96 kənd və qəsəbə, Zəngəzur qəzəsında 115 kənd, bu kəndlərdə 4472 qadın və uşaq məhv edilmişdir...

Mart ayı

Mart ayı... Allah amandır, əlhəzər, min əlhəzər!
Mart ayı çox qəmli aysan, tez qurtar get muxtəsər.
Sən kimi mənhus bir aydan deyil məmnun bəşər,
Olmamış bəd yemn sən tək nə məhərrəm, nə səfər,
Ərləri məğlub edib, əğyarə sən verdin zəfər.

Bu günün misli keçən il, Allahım, gözdən iraq,
Ermənilər əldə bomba, süngü, xəncərlər, bıçaq,
Kəsdilər evlərdə minlərcə gəlin, arvad, uşaq,
Südəmərlər nizə nukində çalardı əl-ayaq,
Nalə, yalvarmaq bu qövmə hərgiz etməzdi əsər.....

Hacı Səlim Səyyah Qasımzadə
("Bəsirət" qəzeti, 1 aprel 1919)

Unudulmaz faciə

...Biz Bakıdakı Mart hadisələrini yada salarkən, şübhəsiz ki, o günlərdə icra olunan vəhşətə, zülmə, yıxılan xanimanlara, parçalanıb da divara mıxlanan yavrulara, hətk olunan irq və namuslara dəxi ətvinəzər ediyor və insanın bir anda dönüb canavardan da betdər hala düşmək ləyaqətində dəxi olduğunu böyük bir hiss infial və şərməndəliklə görüyüz...

"Musavat"a xitabən elani-hərb edilib nəticədə sosialist, bolşevik və müsavat – heç birisinə fərq qoyulmadan kəsilmək və atılmaq üçün müsəlman olmaq kafi gəlmişdi.

Bu nöqteyi-nəzərdən Şaumyanların Bakıda çıxardıqları hadisə Leninlərin Petroqrad və Moskvadakı hərəkətlərinə qətiyyən bənzəməzdi. Orada sinfi bir hərb, burada isə hərb nami altında milli bir qital, bir qitaliamm icra olunurdu...

Daşnaklar intiqam alıyordu...

Bolşeviklər "Sizə muxtariyyət deyil, xarabalar verəcəyiz" deyirlərdi. Müttəfiqləri daşnaklar da indi izah ediyorlar ki, Bakıyi sahiblərinin əlindən çıxarmaları ilə onlar ermənilyi mühafizə ediyormışlar...

Məmməd Əmin Rəsulzadə
("Azərbaycan" qəzeti, 31mart 1919)

Şaumyanın etirafı

Mart qırğının təşkilatçısı və rəhbəri Stepan Şaumyan 1918-ci il martın 18-də RSFSR Xalq Komissarları Sovetinə göndərdiyi məktubda yazırdı: "Bizim süvari dəstəyə edilən silahlı hücumdan biz bir bəhanə kımi istifadə etdik və bütün cəbhə boyu hücuma keçdik... Biz artıq 6 min nəfərlik silahlı qüvvəyə malik idik. Daşnakların da 3-4 min nəfərlik silahlı milli hissələri vardı ki, o da bizim sərəncamımızda idi. Məhz onların iştirakı vətəndaş müharibəsinə milli qırğın xarakteri verdi. Lakin onun qarşısını almaq mümkün olmadı. Biz bu işə şüurlu surətdə getdik. Əgər azərbaycanlılar üstün gəlsəydilər, onda Bakı Azərbaycanın paytaxtı elan edilə bilməzdi".

Kulnerin şahidliyi

Həmin dəhşətli günlərin şahidi olmuş Kulner familiyalı bir alman 1925-ci ildə Bakı hadisələri barədə bunları yazmışdır:

"Ermənilər müsəlman (azərbaycanlı) məhəllələrinə soxularaq hər kəsi öldürür, qılıncla parçalayır, süngü ilə dəlmə-deşik edirdilər. Qırğından bir neçə gün sonra bir çuxurdan çıxarılan 87 azərbaycanlı cəsədinin qulaqları, burunları kəsilmiş, qarınları yırtılmış, cinsiyyət orqanları doğranmışdır. Ermənilər uşaqlara acımadıqları kimi, yaşlılara da rəhm etməmişdilər".

Ovanes Apresyanın xatirələri

İrəvan quberniyası, Şərur-Dərələyəz, Sürməli, Qars və digər ərazilərdə azərbaycanlıların qırğınının fəal iştirakçılarından biri olmuş erməni zabiti Ovanes Apresyanın xatirələri əsasında amerikalı aqronom Leonard Ramsden Hartvill "İnsanlar belə imişlər" adlı kitab yazmışdır. Ovanes Apresyan kitabın müəllifi ilə söhbəti zamanı ermənilərin ingilislərin və Rusiyanın yardımı ilə öz məqsədlərinə çatdıqlarını qeyd edərək təkcə Bakıda mart qırğını zamanı iyirmi beş min azərbaycanlının qətlə yetirildiyini bildirmişdir.

Soyqırım

Mənbələrin təsdiqinə görə, 1918-1920-ci illərdə 250 mindən artıq azərbaycanlı öldürülmüşdür. Bu soyqırımının başında Xalq Komissarları Sovetinin sədri Stepan Şaumyan, Qafqaz-Xəzər hökumətinin ədliyyə naziri, eser Hayk Nacarov, Bakı Soveti sədrinin müavini, daşnak Aleksandr Araksyan, "Sentrokaspi" diktatura hökumətinin üzvü, daşnak Artaşes Məlik-Yolçyan, L.Biçeraxovun silahlı dəstəsinin əksəriyyət rəisi, daşnak Nerses Cikityan, Bakı menşeviklərinin liderlərindən biri, diktatura hökumətinin üzvü R.Bahadurov, A.Mikoyanın qohumu, qnçakçı Qrant Avateryan, daşnak ordusu və başqaları dururdu.

Vəhşilik

Bakı milyonçuları Musa Nağıyevin və Şəmsi Əsədullayevin nəvəsi, Fransada yaşayıb-yaratmış yazıçı Ümmülbanu (Banin) 1918-ci ilin mart günlərini belə xatırlayır:

"...Azərbaycanın paytaxtı Bakı şəhərində də siyasi canlanma güclənmişdi. Yaranmıq müxtəlif siyasi təşkilatların fəaliyyəti sayəsində rəqabət, dağıntı, döyüşlər baş verdi. Sosialist təmayüllü bir erməni təşkilatı ölkəni kommunist dağıntısından qurtarmaq adı ilə hərbi diktatura rejimi yaratdı. Amma camaat pıçıldaşırdı ki, bu təşkilatın başçıların bolşeviklərdir.

Onlar hər kim olsalar da hakimiyyətləri dövründə müdafiə imkanı olmayan müsəlmanları qırmağa başladılar...

Beləliklə, əgər Türkiyədə qırğın "birtərəfli" idisə (türklər ermənləri qırırdısa), Azərbaycanda ermənilər azərbaycanlıları qırırdı (xristianlar müsəlmanlar əleyhinə). Bu vəziyyətə isə rus hakimiyyəti biganəl-

iklə baxır və bəlkə də fikirləşirdi ki, məşhur "Parçala, hökm sür!" ifadəsi düzgün siyasi ideyadır...

İşıqlar kəsilmiş, ev və şəhər dərin bir qaranlığa cummuşdu. Bu qaranlığı haradan atıldığı məlum olmayan, vıyıldaşan güllələr dəlib keçirdi. Uzaqdan pulemyot atəşləri də eşidilirdi. Biz hər dəqiqə "daşnak"ların (millətçi erməni partiyasının adı belə idi) evə dolacağını, mənzilimizi dağıdıb, bizi də qıracaqlarını gözləyirdik. Telefon da kəsilmişdi..."

"Bir, iki, Bakı oldu bizimki..."

Şahidlərin xatirələrinə görə, 1918-ci ilin əvvəllərində erməni qoşun hissələri Bakı küçələrində arxayınca gəzə-gəzə belə bir marş-mahnı oxuyurmuşlar:

Bir, iki, Qafqaz oldu bizimki,
Bir, iki, Bakı oldu bizimki.
Dənizdən dənizə,
Qara dəniz,
Aralıq dənizi,
Üstəlik Kirit adası.
Şimal sərhədimiz Voronej şəhəri,
Paytaxtımız Tiflis şəhəri.
Yaşa, çox yaşa, Andranik paşa,
Andranik paşa, səni çox yaşa...

31 mart

...Çarizm zənciri-əsarətindən yenicə qurtulmuş olan Azəri türkləri bir əsr müddətində əsarətin ağırlıqlarından o qədər zəif düşmüşdü ki, istiqlalını müdafiə etməyə və istiqlal düşmənlərinə qalib gəlməyə qüdrəti yox idi...

Bundan fəna bir hal olmaz ki, sənə qarşı təcavüz edilə və sənin də bu təcavüzü dəf etməyə heç bir vəsilən olmaya. Bakı müsəlmanları mart günlərində bu halda idilər. Və əgər türklər – Osmanlı türk qəhrəmanları vaxtlı-vaxtında gəlməsə idilər, Azəri türkləri Bakı həzimətindən sonra özlərini yığışdırıb müdafiəyə hazır olmağa fürsət tapınca deyil bir Bakıda, Şamaxıda, bəlkə də ümum Azərbaycanda daş-daş üçtə qalmazdı...

Üzeyir Hacıbəyli
("Azərbaycan" qəzeti, 31 mart 1919).

Mart

Azərbaycan tarixi-maliyyəsində mart xüsusi bir səhifə işğal ediyor.

Mart 1-ci Türk dünyasını qanlı pəncəsində boğan velikorus hakimiyyətini, 22 mart böyük Türk qovminin qurtuluş gününü, 31 mart Azərbaycan xalqının qanlı faciəli günlərini xatırlatıyor. 31 mart...

Bu gün hər bir millətin paytaxtı olan Bakımızda qanlar axmış, evlər talanmış, ata-babalarımız şəhid düşmüş, ana-bacılarımız əsir edilmiş...

Bu gün suxarsevlər, şaumyanlar, inqilabçı vahid rusiyaçılar oyanmış türk tənliyini çökəməmiş, onu öldürmək üçün daşnak qüvvələrinə müraciətən unudulmayacaq qanlı günlə vücuda gətirmişlər...

Bu gün mart günlərini xatırlarkən Qarabağ, Əsgəran, Zəngəzurlarımızda qanlı mart günlərinə də şahid oluruz. Bolşevik təhlükəsindən bilaistifadə daşnak xəya-nəti yenə təkrar ediyor.

Bu gün qanlı mart günlərini yad edərkən bütün millət həyəcan və iztirabilə namusun təmizləməyə, Qarabağını qurtulmağa qoşuyor.

Mirzəbala MƏMMƏDZADƏ,
("Azərbaycan" qəzeti, 31 mart 1920).

Mart çıxdı – dərd çıxdımı?

Sənədlərdən gördüyümüz kimi, 1919 və 1920-ci illərdə mart ayının 31-i milli matəm günü elan olunmuş, iş günü sayılmamış, hər yerdə şəhidlərin xatirəsinə yas məclisləri düzəldilmiş, mənfur erməni yağılarına lənətlər oxunmuş, yaddaşlar təzələnmişdir. Sovet hakimiyyəti qurulandan sonra bütün bunlar qəsdən unutdurulmuş və xalq öz tarixindən ayrı salınmışdır...

Ermənilərin azərbaycanlılara qarşı törətdikləri ağlasığmaz soyqırımı haqqında sovet hakimiyyəti illərində bircə kəlmə də yazılmamış, 1918-ci ildə baş verən dəhşətli hadisələrə "vətəndaş müharibəsi", "küt-ləvi iğtişaşlar", "qiyam" və s. kimi uydurma cildlər geyindirilmiş, sovet tarixşünaslığı həmin dövrü kökündən saxtalaşdırmışdır. Yalnız Azərbaycan müstəqilliyə qovuşduqdan sonra qəzet-jurnal səhifələrində bu mövzu ilə bağlı arasıra məqalələr görünməyə başlamış, sonralar bir sıra əsərlər də nəşr edilmiş, nəhayət, bu soyqırımına dövlət səviyyəsində tarixi qiymət verilmişdir.

Bu il qanlı mart qırğınlarının 90-cı ildönümü tamam oldu. İndi 31 mart azərbaycanlıların soyqırımı günü kimi qeyd olunur. Gəlin heç olmasa ildə bir dəfə unutqanlığımızı unudaq, ermənilərin Azərbaycanı qana boyadıqlarını yada salaq. 1905-1998-ci illərdə düşmən güllələrinə tuş gələn azərbaycanlıların ruhu qarşısında baş əyək...

Knyaz ASLAN

Müsahibə

"POEZİYANI ÖYRƏNMƏKLƏ AZƏRBAYCANIN TARİXİNƏ YAXINDAN BƏLƏD OLMUŞAM"



ABŞ-ın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Ann Dersy (Ənn Dersi):

"Əgər diplomatın, çalışdığı ölkənin mədəniyyətini yaxından öyrənmək marağı yoxdursa, o, heç, diplomat olmamalıdır"

ABŞ-ın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Ann Dersy fəaliyyətinin ilk günündən özünü nəinki kişi xələflərindən, ümumiyyətlə, Azərbaycanda fəaliyyət göstərən diplomatik korpusun təmsilçilərindən fərqləndirdi. Azərbaycanda fəaliyyətə başlamazdan əvvəl ölkəmizin yalnız siyasi, iqtisadi həyatını yox, həm də dilini, dinini, tarixini, mədəniyyətini, folklorunu yaxından öyrənməklə, xalqla da elə öz dilində ünsiyyətə girdi. "ABŞ-ın səfiri kimi məsuliyyətli vəzifəni daşımağınız bir qadın kimi Sizinçün ağır deyilmi" sualına uzun-uzadı diplomatik dildə yox, çox lokonik və Azərbaycan dilində "Aslanın erkəyi, dişisi olmaz", deyə cavab verdi. Bir müddət sonra onu şiə müsəlmanlarının Aşura mərasimlərində də gördük. Bir sözlə, Enn xanım siyasi danışıqlarda da, ictimaiyyət arasında da xalqın özünəməxsus xüsusiyyətlərini dərk edən və buna görə də səmimi etimad qazanan peşəkar diplomat kimi qəbul olundu.

8 mart - Beynəlxalq qadınlar günü ABŞ-da bir bayram kimi qeyd olunmasa da, o, peşəkar xüsusiyyətlərindən irəli gələn addım ataraq Azərbaycan qadınları üçün əlamətdar olan bir gündə jurnalistlərlə məxsusi görüş keçirmək qərarına gəldi və bir neçə qəzetin xanım jurnalistlərinə müsahibə verdi. Onun danışmaq istədiyi gender bərabərliyi, bizim soruşmaq istədiyimiz isə xanım səfirin özü ilə bağlı suallar idi.

- Əvvəla Sizi 8 mart Qadınlar günü münasibəti ilə təbrik edirəm. Çünki bu, çox vacib bayramdır, - deyə xanım səfir müsahibəyə başladı. - Sevincin də *(Səfirliyin mətbuat şöbəsinin rəhbəri Sevinc Osmanqızı - İ.Q.)* bildiyi kimi, Azərbaycanda jurnalistikada qadınların fəaliyyət göstərməsi həmişə məni təsirləndirib. Çox şadam ki, bu gün münasibəti ilə keçirdiyim görüşdə iştirak edən jurnalistlərin hamısı xanımlardır. Mən Azərbaycanda yeni fəaliyyətə başlayanda ölkənin ictimai həyatında, eləcə də müxtəlif rəhbər vəzifələrdə qadınların fəal çalışmaları xoş təəssürat aldığım məqamlardan biri oldu. Həqiqətən də müxtəlif sahələrdə - mətbuatda, təhsildə, vətəndaş cəmiyyətində, işgüzar dairələrdə, rəhbər vəzifələrdə qadınların uğurla fəaliyyət göstərmələri məni təsirləndirib. Bildiyiniz kimi, ABŞ-ın siyasətindən biri də qadınların cəmiyyətdə rolunun güclənməsinə kömək etmək, onların səsi və rolunun ölkənin həyatında daha da artmasına nail olmaqdır. Biz inanırıq ki, bütün təbəqələrin istedadından faydalanan və bəhrələnən cəmiyyətlər uğurlu olur. Odur ki, biz gender bərabərliyini dəstəkləyirik, eləcə də cəmiyyətin bütün təbəqələrinin nümayəndələri üçün bərabər imkanların yaradılmasını salamlayırıq. Heç şübhəsiz ki, biz bütün dünyada qadınlar üçün də keyfiyyətli, yüksək tələblərə cavab verən təhsilin bərqərar olmasını dəstəkləyirik.

- Siz Azərbaycan cəmiyyətində qadınların fəal olmasından təsirləndiyinizi dediniz. Sizin Azərbaycan mentalitetini, mədəniyyətini duymanız və ona yaxından bələd olmanız da bizi təsirləndirib. Xatırlayıram ki, səfir vəzifəsinin bir qadın kimi Sizin üçün çətinliyi ilə bağlı suala "Aslanın erkəyi, dişisi olmaz" Azərbaycan atalar sözü ilə cavab vermişdiniz...

- Mən bu ifadəni iki yerdən eşitmişəm: dostum Sevincdən və Azərbaycan dili müəllimimdən. Bildiyimə görə, məşhur və müdrik Azərbaycan şairəsi Natəvan bu fikri klassik əsərlərindən birində istifadə etmişdi. Bu fikir gender bərabərliyinin ən gözəl nümunəsidir ki, klassik ədəbiyyatda öz əksini tapıb. Kontekst bundan ibarət olub ki, qadın xan öz torpaqlarının qorunmasında çətinliklərə sinə gərərək kişilərə belə bir ismarıc göndərib: "Düşünməyin ki, qadın olduğum üçün vətənimə hücum edə bilərsiniz. Aslanın erkəyi, dişisi olmaz". Bu ifadə məni çox təsirləndirmişdi.

Mən ədəbiyyatı, poeziyanı çox sevirəm. Ona görə ki, poeziyanı öyrənməklə mən Azərbaycanın tarixinə, mədəniyyətinə daha yaxından bələd olmuşam.

- Azərbaycan poeziyasından hansı əsərlərlə tanış olmusunuz?

- Azərbaycan dilindən iki müəllimim var. Yeri gəlmişkən, onların hər ikisi qadındır. Mən onlarla bərabər Nizaminin, Füzulinin, Səməd Vurğunun, Natəvanın şeirlərini öyrənirəm. Molla Nəsrəddinin lətifələrini də oxuyuram, amma ona bir qədər az meylliyəm, daha çox klassik poeziyaya maraq göstərirəm.

"Adın gəzir dodaqlarda,
Yaxınlarda, uzaqlarda.
Şöhrətin var hər diyarda,
Gözəl Bakı, gözəl Bakı!

Buruqların gəlməz saya,
Ucalırsan günə, aya.
Səs salırsan bu dünyaya,
Gözəl Bakı, gözəl Bakı!"

Mən Bakının sahillərinə, o ponaramaya baxanda bu sətirləri düşünürəm.

- Xanım kimi səfir olmaq, vətəndən, uşaqlarınızdan kənarda yaşamaq nə qədər asan və nə qədər çətin olur? Bildiyimizə görə, uşaqlarınız Sizdən kənardadırlar. Həm ailənizə, həm də işinizə vaxtınızı necə bölüşdürürsünüz?

- Diplomatik karyeram boyu qadın cinsinə mənsub olmağım fəaliyyətimə təsir etməyib. Diplomatiyada uğur qazanmaq insanın bu işin öhdəsindən gəlib-gəlməməsindən asılıdır. O ki qaldı ailəm və karyeramın bir-biri ilə tarazlaşdırılmasına, bu həqiqətən çətindir. Bilirəm ki, bu problem bir çox cütlər, ailələr üçün yaranan problemdir. Ailənin karyera ilə tarazlaşdırılması məsələsinin nə qədər çətin olduğunu Conatan *(Səfirliyin ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri Conatan Henik - İ.Q.)* da bilir. Ailə ilə karyeranın tutuşub-tutuşmaması və yaxud tarazlaşmanın uğurlu olması, əlbəttə, ailədəki cütlüyün hər ikisinin ailə dəyərlərinə, ailənin saxlanılmasına sədaqətindən, ailənin qorunmasına nə dərəcədə çalışmalarından asılıdır. Lakin bütün dünyada qadınların həm ailədə, həm də karyeralarında uğur qazanmaları üçün iş yerlərinin çevik olmasına çalışmaq lazımdır ki, işə götürənlər qadınların ailə və işdəki fəaliyyətlərinin tarazlaşdırılması üçün çevik iş rejimi tətbiq etsinlər.

İş yerlərinin çevik olması üçün görülməli variantlar çoxdur. Bu çevik iş rejiminin yaradılması, yaxud ailənin hər iki üzvünün ailə işləri ilə məşğul olması üçün iş yerində yeni ana olmuş işçinin vəzifələrinin bir hissəsinin başqa bir işçi tərəfindən bölüşdürülməsinin işə götürən tərəfindən təşkil edilməsidir. Bunun baş verməsi üçün işçilər özləri iş qrafiklərinin daha çevik qurulması ilə bağlı təkliflərlə çıxış edə bilərlər, yaxud kadrlar şöbəsi bu ideyanın reallaşdırılması üçün təklif variantları ilə çıxış edə bilərlər. ABŞ-da bunu etmiş şirkətlərin iş təcrübəsi göstərir ki, bu cür çevik iş rejimi ilə işləyən adamlar daha xoşbəxtdirlər və onların ümumi işə verdikləri töhfə daha böyük olur. Məsələn, mənim Amerikada vəkil işləyən bacım iki uşaq anasıdır. O, uşaqları və ailəsi ilə daha çox vaxt keçirməkdən ötrü öz işəgötürənindən xahiş edib ki, həftəlik iş rejimini 5 gündən 3 günə endirsin. Şirkət onun xidmətlərini və peşəkarlığını yüksək qiymətləndirdiyi üçün bu varianta razılaşıb. Hazırda uşaqlar hələ ki, böyüməkdə ikən o məhz bu cür - həftədə 5 gün deyil, 3 gün işləməkdə davam edir.

Mənim vəziyyətimdə isə bu bir qədər fərqlidir. Ölkəsini xaricdə təmsil edən diplomat sutkanın 24 saatını işləməlidir. Həyat yoldaşım təqaüdə çıxmamışdan əvvəl karyera diplomatı olub. Uşaqlarımız xəstələnəndə növbə ilə xəstə uşaqla evdə qalırdıq. Xoşbəxtlikdən mənim çılışdığım səfirliklərdə də həmişə ailəyə dost şərait olub. Misalçün, əgər uşağın xəstələnməsi ilə bağlı poliklinikaya və ya xəstəxanaya götürülməsi ilə bağlı vəziyyət yaranıbsa, iki saat işdən ayrıla bilirdim. Rəhbərim bilirdi ki, buna görə mən işdə iki saat artıq işləyə bilərəm. İndi uşaqlarım böyüyüblər. Dörd uşağımdan 3-ü artıq ali təhsillərini bitirib, biri isə gələn il təhsilini başa vuracaq. Onlar böyüyüblər və artıq özləri bizə baş çəkməyə gəlirlər.

- Uşaqlarınızdan yolunuzu davam etdirən varmı?

- Ola bilsin, onlar bu məsələ barəsində düşünürlər. Oğlum dəniz piyadaçılar qüvvələrinə qoşulmaq barədə düşünür. Ola bilər bundan sonra bu, diplomat olmağı nəzərdə keçirə bilər. Bir qızım ərəb dilini, digəri isə fransız dilini tədris edir. Onlar nə vaxtsa xaricdə işləmək planlarını nəzərdən keçirə bilərlər. Hələ ki, qərar vermək tezdir.

- Sizcə, Azərbaycan və Amerika xanımları arasında hansı oxşar və fərqli cəhətlər var?

- Sevinirəm ki, bizim ölkələrimizin xanımları arasında oxşarlıqlar fərqlərdən daha çoxdur. Azərbaycan qadınları həm öz uşaqlarının qayğılarını çəkirlər, təhsil, səhiyyə, ümumiyyətlə, sosial sahələrdə çoxfəaldırlar. Mən Azərbaycanda gördüyüm və işlədiyim qadınların fəal olması ilə çox böyük məmnunluq hissi duyuram.

- Diplomatik danışıqlarda qadın cazibəsi rol oynayırmı?

- Şarm şarmdır. İstər qadın, istərsə də kişinin şarma malik olması onun üstünlüyüdür. Şübhəsiz ki, danışıqlarda şarmdan da istifadə etmək əlavə imtiyazdır.

- Sizin artıq ikinci ildir ki, dünyanın şiə müsəlmanlarının qeyd etdiyi Məhərrəmlik ayında qan verməyiniz və müraciət etməyiniz xüsusi maraq doğurub. Halbuki Azərbaycanın dövlət qurumları dinin dövlətdən ayrı olduğunu əsas gətirərək bu mərasimə ehtiyatla yanaşıb. Bu Sizin şəxsi qərarınız idi, yoxsa iki ölkə arasındakı münasibətlərə aidiyyatımı var idi? Diplomatik münasibətlər üçün bu addımınızın mənası nə idi?

- Şübhəsiz ki, hər iki amil rol oynamışdı. Mən İraqda işləyəndə həmin kədərli günün adamların özünü döyməsi kimi faktları müşahidə etmişdim. Amma eşitmişdim ki, insanların bir qismi Azərbaycanda həmin günü özünü döymək əvəzinə, talassemiyalı xəstə uşaqlara yardım etmək məqsədi ilə qan verməklə qeyd edirlər. Düşündüm ki, bu həmin dini ənənəni qeyd etməyin gözəl və çox insani yoludur. Ona görə bu ideya mənim üçün maraqlı göründü. Lakin bu addımım Azərbaycanda dostluğumuzun bir nümunəsi kimi qəbul edilibsə, bu məni yalnız sevindirər. Çünki bizim ölkələrimiz çox güclü dost və partnyorlardır.

- Sizin evinizdə Mir Mövsüm Ağanın şəklini görürəm. Bu şəkili evinizdə saxlamağınız mənə çox maraqlı göründü...

- Burada gördüklərniz - həm bu şəkil, həm də bir neçə Quran kitabları mənə verilmiş hədiyyələrdir. Bunları hər il Orucluq münasibəti ilə verdiyim iftar zamanı din xadimləri hədiyyə ediblər. Regionlara səfər edərkən mən imkan daxilində məscidlərə və digər dini məbədlərə baş çəkirəm. Bu, əlbəttə ki, mənim Azərbaycanın mədəniyyətini daha yaxından başa düşməyimə kömək edir. Bir dəfə Mir Mövsüm Ağanın ziyarətgahına da getmişəm.

- İnsanların dini hisslərinə bu qədər diqqətlə yanaşmanız uğurlu diplomatik jestin bariz nümunəsidir...

- Əgər diplomatın, çalışdığı ölkənin mədəniyyətini başa düşmək, yaxından öyrənmək marağı yoxdursa, heç, diplomat olmamalıdır. Çünki uğurlu diplomat olmağın vacib hissəsi başqa ölkənin mədəniyyətini başa düşməklə əlaqədardır.

- Yemək və geyimlə bağlı maraqlarınızı bölüşməyinizi istərdik...

- Hər bir qadının qarderobu ilə bağlı çox müdrik bir kəlməsi var ki, bu da onun geyiminin çox praktik olmasıdır. Əgər qadın həm ailəli, həm işləyir, həm də vaxtı çox məhduddursa, qarberobdakı geyimlər çox praktik olmalıdır. Keçmişdə diplomatlar uniforma geyinirdilər. Arzu edərdim ki, bu təcrübə bu gün də qüvvədə olsun. Bu mənimçün daha asan olardı.

- Belə bir ideal bədən quruluşuna malik olmaq üçün yəqin ki, ciddi pəhriz qaydalarına riayət edirsiniz?

- Azərbaycanda pəhriz saxlamaq çox çətindir. Yeməkləriniz çox dadlıdır. Mən hər şeydən qədərində dadmağı, eyni zamanda sağlam yeməkləri xoşlayıram. Çoxlu meyvələr, tərəvəzlər yeyirəm.

İdman etmək çox vacibdir. Ələlxüsus işgüzar və ailəsi olan qadınlar üçün. Odur ki, mən idman zalına gedirəm, fitneslə, tennislə məşğul oluram. İdman böyüməkdə olan qızlar üçün çox vacibdir. Mən özüm kollecdə oxuyarkən Amerikada məktəblərdə oxuyan oğlan və qızlar üçün idman dərslərinə görə bərabər sayda fond ayrılması haqqında qərar çıxdı. Bu, qızların sağlam böyüməsi üçün çox vacib qərar idi.

Mən 3 qızımı da məhz belə böyütmüşəm - onları məktəbdə idmanla məşğul olmağa həvəsləndirmişəm. Basketbol, futbol oynayıblar, üzgüçülüklə məşğul olublar. Onların gələcəkdə fəal, lider olması üçün bu vacib amildir. Bilirəm ki, Azərbaycanın da çox güclü qadın valeybol komandası, güllə atıcılığı ilə məşğul olan qadınları var.

İlhamə QASIMLI

Elmi nəzəriyyələr

İNSANIN YARANMASINDA SƏSİN VƏ İŞIĞIN ROLU

Bəzən adama gəlir ki, canlı aləmin yaranması bir möcüzədir və onun sirlərini açmaq mümkün olmayan məsələdir. İnsanın yaranması isə təbiətin yaratdığı möcüzələrin möcüzəsidir.

Əvvəllər canlı aləmin öyrənilməsi daha çətin idi. Çoxluqlar və qarmaqarışıqlar müəyyən bir sistemləşmə tələb edirdi. Karl Linney bu işin öhdəsindən gələrək canlı aləmin ilkin düzgün təsnifatını verdi. Sonralar zoologiya elmi əsasən Jan Lamark və Çarlz Darvin tərəfindən inkişaf etdirilirdi, canlı aləmin inkişaf səviyyəsi olan təkamül nəzəriyyəsi yaradıldı. Möcüzə adlanan hadisələrin yavaş-yavaş elmi izahı verildi.

XVI əsrdə yaşamış fransız filosofu Medel de Monten deyirdi: "Möcüzələr təbiətə xas olduqları üçün deyil, bizim kifayət qədər bilmədiyimiz üçün möcüzədir".

XVIII əsrin fransız yazıçı-filosofu Deni Didro isə belə yazırdı: "Möcüzələr onlara inanılan yerdə olur və daha çox inandıqca daha çox təsadüf edilir".

İnsanlar bu səbəbdən də təbiətin sirlərini açmaq üçün səbəbləri təbiətin özündə axtarmağa başladılar. Nəhayət, canlıların, o cümlədən insanın yaranmasının elmi nəzəriyyəsi meydana çıxdı.

Bəşər tarixinin yaşı 10-12 min il qəbul edilir. İnsan özünün ağlı sayəsində Misir ehramlarından başlayaraq Yerin təbii peyki olan Aya qədər çox mürəkkəb bir yol keçmişdir. Həqiqətən də insan ağlı sayəsində Yer kürəsində çox dəyişikliyə nail olmuşdur. Bu tarixi müddətdə insanın şüuru inkişaf etməklə yanaşı onun özünün simasında da çox kəskin dəyişikliklər də baş vermişdir.

Əvvəlcə yer səthində canlıların yaranmasının qısa xülasəsini verək. Yer planetindən başqa canlıları olan ikinci məkan məlum deyil. Lakin elmi axtarışlar davam edir. Mütəxəssislərin fikrincə, qalaktikamızda həyat olan çoxlu ulduz sistemləri vardır.

Günəş sistemində həyatın yaranmasını təmin edən şərait (amillər) bunlardır: Günəşə Yer kütlələrinin nisbəti, onlar arasındakı məsafə, Günəş şüalanmasının intensivliyi, atmosferdə şəffaflıq, atmosfer təzyiqi və onun tərkibi, yaxşı həlledici sayılan suyun olması, temperatur (-50°S-dən +100° S-yə qədər), üzvi maddələri yarada biləcək kimyəvi elementlərin (H, O, C, N, S, F və s.) çoxluğu və s.

Bəzi mütəxəssislər güman edirlər ki, ilkin üzvi maddələr Yerə kosmosdan gəlmişdir. Digər mütəxəssislərin fikrincə, qədim Yer planetinin atmosferində üzvi molekullar təbii halda yaranmışdır. Məsələn, A.Baraboy yazır: "İsbat edilmişdir ki, qədim Yer planetində canlı aləmi yarada biləcək üzvi molekullar yaranmışdır". Sonrakı dövrlərdə kimyəvi təkamül nəticəsində canlı həyatın bütün formalarını yarada biləcək polimerlər və iri molekullar yaranmışdır *(Барабой Б.А. Солнечный луч. –М.: Наука, 1976, с.17-18).*

"Bunlar ionlaşdırıcı şüalanmalar (kosmik şüalar və Yer qabığında baş verən radioaktiv izotopların şüalanmaları), Günəşin ultrabənövşəyi şüaları, atmosferdə elektrik boşalmaları (ildırım, şimşək), vulkanik püskürmələrdir. Bu enerji mənbələrindən ən mühümü Günəşin şüalandırdığı ultrabənövşəyi şüalar olub daima öz təsirini göstərir. *(Барабой Б.А. Солнечный луч. –М., Наука, 1976, с.16-17).*

Cəsarətlə demək olar ki, ilkin hüceyrə suda və su ilə qurunun səthində isti və mülayim qurşaqlarda yaranmışdır. Hüceyrə canlı aləmin struktur vahiddir. Canlı aləm cansız aləmdən yaranmışdır. İlkin canlı hüceyrənin yaranma tarixini 2,5-3 milyard il qəbul edirlər. Yer planetinin yaranma tarixi isə 4,5 milyard il qəbul edilmişdir.

İnsan yeganə varlıqdır ki, həm özünü, həm də onu əhatə edən aləmi dərk edir. Belə də demək olar: "İnsan kainatın görən gözü və düşünən beynidir. Daha doğrusu, kainat insan vasitəsilə özünü dərk edir".

Hələlik insan özündən başqa düşünən məxluqa rast gəlməmişdir. Lakin axtarışlar davam edir.

Mütəxəssislərin fikrincə, insanın əcdadı dördayaqlı ali məməli heyvan olmuşdur. Qazıntılar zamanı tapılmış kəllə sümüyü və başqa sümük qalıqlarının tətbiqi göstərir ki, bu heyvanların çəkisi 25-28 kq arasında, boyları 120 sm və ya bir az kiçik olub. Onların çənələri möhkəm, ağızları girdə (yastı) formada olmuş, kəsici dişləri olmamışdır. Əcdadlarımız sürü (dəstə) halında yaşamışlar. Onlar yırtıcılardan uzaq olmaq üçün çay vadilərində, bataqlıqlarda, mağarları çox olan sahələrdə məskunlaşmışlar. Onlar gündüzlər qida toplamış, quşlar, onların yumurtaları, balıqlar, meyvələr, özlərindən zəif olan məməlilərin əti və bəzi bitki kökləri ilə qidalanmışlar. Gecələr isə mağaralarda

və təbii daldalanacaqlarda (qamışlıqlarda, xəndəklərdə və s.) gecələməklə həm özlərini, həm də körpələri istidən, soyuqdan və yırtıcılardan qorumuşlar.

Bu ali məməlilər primatlar dəstəsinə aid edilir. Primatlar lemurdan insana qədər 200 növdən ibarətdir. Onların dərisi tüklə örtülü olur; bəzilərinin saqqalı və saç olur; yaxşı inkişaf etmiş eşitmə və görmə üzvlərinə malik olurlar; əsasən gündüzlər həyat tərzi keçirirlər; dəstə halında və ya ailə formasında yaşayırlar. Qominidlər (yunan dilində "insan" deməkdir) özlərini yırtıcılardan mühafizə etmək üçün dəstə halında çox qorxunc səslər çıxarmaqla, onları uzaqlaşdırmağa nail olmuşlar. Bəzən qominidlərə "çığırqanlar" da deyirlər.

Əcdadlarımız olan qədim qominidlər qida toplayarkən qabaq ayaqlarının pəncələrindən istifadə ediblər. Bu proses tədricən çox uzun sürən bir dövrdən sonra, qabaq ayaqların əl-qola çevrilməsinə səbəb olmuşdur. Qabaq ayaqlarını itirmiş əcdadlarımız düz (şaquli) gəzməyə məcbur olublar. Beləliklə, *Homoyerestuz* – düz gəzən insan yaranmışdır.

Bu hadisə 2-3 milyon il bundan əvvəl baş vermiş, əcdadlarımızı heyvanat aləmindən birdəfəlik ayırmışdır. Beləliklə, insanın yaşı 2-3 milyon il qəbul edilir. Onlar Avstraloptik adlanır, tüksüz dəri örtüyünə malik olublar. Bu insanların sümük qalıqları Şərqi və Cənubi Afrikada tapılmışdır. Onlar əllərinin köməyi ilə daşdan, ağac parçasından, heyvan sümüklərindən alət kimi istifadə etməklə heyvanları, quşları ovlamış, özlərini yırtıcılardan mühafizə edə bilmişlər. Əcdadlarımızın oddan istifadə etməsi və onu əldə etməklə bişmiş qidalarla (əsasən bişmiş ətlə) qidalanmaları onların baş-beyinlərinin daha da inkişafına səbəb olmuşdur. Onların ov zamanı birgə hərəkətləri aralarında ünsiyyətin yaranmasına səbəb olmuşdur. Bu ünsiyyət tədricən inkişaf edərək dəstənin üzvləri arasında sadə nitqin yaranmasına səbəb olmuşdur. Bu da əcdadlarımızın sinir sisteminini və baş-beyinin inkişafına çox ciddi təkan vermişdir.

Ç.Darvin yazır: "Hətta ən qeyri-mükəm-məl nitq forması, insanın uzaq əcdadlarının əqli qabiliyyəti mövcud olan memymunların hər hansından müqayisəedilməz dərəcədə yüksək idi. Belə də düşünmək olar ki, nitqdən istifadə olunması və onun inkişafı beyinə təsir göstərmiş, yəni fikirlər yaratmaq üçün ona imkan və şərait yaratmışdır". (*"Fikir ardınca".–Bakı: Gənclik, 1972).*

Bunların nəticəsində şüurun inkişafı ilə əcdadlarımız özləri daşdan sadə ov və mühafizə alətləri düzəltməyə nail olublar. Beləliklə, *Homohablis* – bacarıqlı insan meydana gəlmişdir. Onun yaşını 1,850 milyon il qəbul edirlər.

Qominidlər ailəsini təşkil edənlər sırasına qazıntı halında tapılanlar və müasir insanlar daxildir. Onların ən qədimləri bunlardır:

Avstrolipitek (Australopithecus). Ən qədim və primitiv insan növüdür. Onların boyları 120 sm, çəkiləri 22-25 kq olmuşdur. Onlar düz gəzən insan olublar. Bunlar daşdan ov alətləri düzəldə biliblər. Şərqi və Cənubi Afrikada yaşayıblar. Sonralar bütün qitələrə yayılıblar.

Pitekantrop (Pitencantraps). Nəsli kəsilmiş insan növüdür. Onlar 500 milyon il bundan əvvəl yaşayıblar. Boyları 150 sm, çəkiləri 40-45 kq olub. Düz gəzən olublar. Daşdan, sümükdən kəsici alətlər hazırlaya biliblər. Sümük qalıqları Asiyada və Afrikada tapılmış, Avropada da yaşamışlar.

Neandartal insan (Homoneanderthalensis). Qazıntılar zamanı sümüklərinin qalıqları Avropa, Asiya və Afrikada tapılmışdır. 200-350 min il əvvəl yaşamışlar. Çaxmaq daşından sadə əmək alətləri, ov və mühafizə üçün kəsici altələr düzəltmişlər. Bəzi mütəxəssislər onları insanın xüsusi növü, bəziləri isə müasir insanın əcdadları hesab edirlər. Onların nitqi olub.

Şüurlu insan (Homosapins). Yer kürəsində canlı orqanizmin ən yüksək pilləsi insandır. Cəmiyyətin tarixi fəaliyyətinin subyektinin 40 min il yaşı vardır. Bütün canlı orqanizmlərdə təbiətlə təmasda qıcıqlandırıcıların təsirindən onlarda hiss üzvləri yaranmışdır. Onlar hiss üzvlərinin köməyi sayəsində yaşayır və nəsillərini davam etdirirlər.

Uzun sürən təbii inkişafın sayəsində ali məməlilərdə də insanda 5 hiss üzvü vardır: ***görmə, eşitmə, dadbilmə, iybilmə və lamisə hiss orqanları.***

Bunları təbiətdə olan işıq, səs, iy, dad, soyuq, isti, bərk, yumşaq olan qıcıqlandırıcılar yaratmışlar. Bu qıcıqlandırıcılardan ən güclü təsirə malik olanları işıq şüaları və səs dalğaları əcdadlarımızda ən güclü görmə və eşitmə aparatlarını yaratmışlar. Mütəxəssislərin rəyincə, əcdadlarımızın sinir sisteminin və baş-beyinin inkişafında görmə və eşitmə əvəzedilməz rol oynamışdır. Demək olar ki, şüurlu insan Homosapins çox yaxşı inkişaf etmiş, eşitmənin və görmənin sayəsində yaranmışdır.

Böyük alman filosofu, alimi və şairi İ.V.Höte demişdir: "Göz öz varlığına görə işığa minnətdar olmalıdır". (*Барабой Б.А. Солнечный луч.– М., 1976).*

İnsan sutkada qəbul etdiyi informasiyanın 95%-ni görmə yolu ilə əldə edir. Bu məsələni izah etməyə çalışaq.

Səs dalğalarında insan infra və ultra dalğalardan başqa 20-200 hs arasında olan səs dalğalarını yaxşı eşidir. Cürbəcür spektirləri bir-birindən yaxşı ayırd edə bilblər. Bu onların müdafiəsi üçün çox vacib imiş. Dağıdıcı təbiət hadisələri səslərini də yaxşı seçə bilib-

lər (tufanın, ildırımın, selin, qar uçqunun, zəlzələnin, vulkan püskürmələrinin və s).

Səs əslində mühitdə yayılar. Boşluqda səs yayılmır. Atmosferin və okeanların olması canlı aləmin həm bu cəhətdən və digər cəhətlərdən Yer səthində yaşamalarını təmin edən amillərdir.

Səs dalğalarının elastik mühitdə (qazlarda, mayelərdə, bərk cisimlərdə) yayılması heyvanların və insanların eşitmə sisteminə təsir edir, bu da səs effekti kimi qəbul edilir. Əcdadlarımızda siqnallar vermək məqsədi ilə cürbəcür səslər çıxarıblar. Bu səslər zaman keçdikcə, tədrici inkişaf nəticəsində dəstədə ünsiyyət vasitəsi kimi onların arasında sadə nitqin yaranmasına səbəb olmuşdur. Bəzi mütəxəssislərin fikrincə, nitqin yaranmasının 1 milyon il yaşı vardır. Lakin başqaları dik gəzən insan yaranan gündən 2-2,5 milyon il sonra nitqin yaranmasını qəbul edirlər. İnsan nitqinin yaranm tarixi məsələsi mübahisəli olaraq qalmaqdadır.

İnsan gözü ən yaxşı inkişaf etmiş görmə cihazıdır. "Enerji cəhətdən göz Günəş şüalarına yox, şüaların ətraf mühitdəki cisimələrdən səpələnməsinə uyğunlaşmışdır" *(Vavlov S.İ. Göz və günəş" (rus dilində). –M., 1956, s.108).* Daha sonra "İnsan gözü təkamül fəaliyyətinin son mərhələsi olub, canlının əsas funksiyasıdır. Həlledici an o zaman yaranır ki, Günəş şuası özü qıcıqlandırıcı kmi yox, ətraf mühitdə olan əşyalardan səpələnərək, onlar haqqında informasiya verir" (*Баранов Б.А. Солнечный луч. – М., 1976).*

İnsan gözündəki 7 işıq spektrindən 5-i görməyə qadirdir. İkisi infraqırmızı və ultrabənövşəyi şüaları görə bilmir. Bunlardan birincisi çox uzundalğalı, ikincisi isə çox qısadalğalı şüalardır. Biz nəinki ətrafımızda olan əşyaları, cisimləri, həmçinin də göy cisimləri olan Günəşi, Ayı, planetləri, ulduzları və başqa yaxın göy cisimlərini də görürük. Bunların hamısı əcdadlarımızda ətrafa maraq doğurmuş, onları düşünməyə vəlar etmişdir. Səs effekti əcdadlarımızda nitq yaratmış, görmə ilə birlikdə insan şüurunun inkişafında əsas amil olmular.

Heyvanlarda və insanlarda yaddaşın olması bütün psixi hadisələrin ən vaciblərindən biridir. Demək olar ki, yaddaşın yaranması və inkişafı görmə və eşitmənin sayəsində meydana gəlmişdir. Burada da səs və işıq amilləri özünü tam mənsında göstərmişdir.

İndi də belədir: dilsiz cəmiyyət, cəmiyyətsiz də dil yoxdur. Əmək dəstədə ünsiyyət ola bilməz, çünki nəyi isə düzəltmək üçün həmin prosesi dərk etmək lazım olar. Dərk etmək üçün əcdadlarımızı heyvanat aləmindən ayıran nitq və şüur lazım gəlir. Ən ağıllı sandığımız heyvan belə ən sadə alət düzəltməmişdir. Əməyin təbiətdə nümunəsi yoxdur. Belə düşünmək olar ki, əcdadlarımız əməklə məşğul olana qədər dərketmə qabilliyyətinə malik olmuşlar.

Əcdadlarımızın şüurlu insana gəlib çıxması üçün ilkin amil nitq, inkişaf etmiş görmə və eşitmə sistemi olmuşdur. Əmək fəaliyyəti şüurlu insana məxsusdur. Müasir insanın 10-12 min il yaşı vardır. Şüurlu insanın *(Homosapiens)* 40 min il yaşı vardır. Bu məsələyə də toxunmaq lazımdır. Bəzi Qərb və Şərq mütəxəssislərləri Darvin təliminin düzgün olmadığını iddia edirlər. Onların çoxu canlıların əmələ gələməsini Darvin təlimi ilə qarışdırırlar. Darvin təlimi Yerdə həyatın yaranması məsələsinə aid deyil. Darvin nəzəriyyəsinə zidd olaraq, həyat Yerdə yox, kosmosda yaranmışdır, hazırda hərəkətverici qüvvə kimi özünü göstərir. *("Природа" jurnalı, 1984, №12).*

Redaksiya qeydində yazılır: "Darvinlə burada heç bir əlaqə yoxdur. Onun nəzəriyyəsi təkamül nəzəriyyəsi olub, həyatın yaranması ilə heç bir əlaqəsi yoxdur" *(SSRİ EA müxbir üzvü U.İ.Polyanskiy, s.38).*

Görkəmli bioloq, SSRİ EA müxbir üzvü J.J.Şmalqauzenin 100 illiyi münasibəti ilə dərc edilmiş "Выдающийся биолог Дарвинист" məqaləsində yazılır: "Yarandığı gündən Darvinizm ətrafında mübarizə başladı və bu gün də davam etməkdədir". Yenə də həmin məqalədə göstərilir: "Darvinizm fəal inkişafda olan nəzəriyyədir, o, biologiya elmi qarşısında meydana çıxan bütün yeni məsələləri həll etməyə, onları təkamül prosesi yolu ilə həll etməyə imkan yaradır". *("Природа" jurnalı, 1984, №12, s. 68-69).*

Darvin təlimi müasir dövrün inkişaf etməkdə olan düzgün nəzəriyyəsidir. Darvinizm təkcə Darvin tərəfindən yaradılmış nəzəriyyə olmayıb, həm də bugünə kimi canlıların təkamül yolu ilə inkişafının tərəfdarları tərəfindən yeniləşdirilmiş, inkişada olan nəzəriyyədir. Lakin Darvinin insanın insanabənzər meymundan əmələ gəlməsi fikri ilə razılaşmaq olmur. Düzdür, meymunlar da insanın əcdadı olan primatlar dəstəsinə aiddir. Qazıntılar zamanı əldə edilmiş materiallar göstərir ki, insanın əcdadı dördayaqlı məməli heyvan olmuşdur. Sonralar onlar inkişaf edərək qominidlər ailəsini yaratmışlar. Meymunlar isə insana çevrilə bilməmişdir. Onlar özlərini hər zaman qida ilə təmin etməyi bacarmış, çox cəld olduqlarından düşmənlərdən qoruna bilmişlər. Onların bu günə qədər gəlib çıxmaları buna dəlalət edir.

İlahiyyatçılar bu cür elmə zidd çıxdıqlarından, Darvin özü və onun təkamül nəzəriyyəsi bugünə qədər tədbiqlərə məruz qalmışdır. İnsanların meymunlara qarşı xoşagəlməz imicindən istifadə edən ilahiyyatçılar bilməlidirlər ki, Yer üzündə yaşayan bütün canlılar vəhdət təşkil edirlər.

Babacan Süleymanoğlu

Elm və texnika

İsmət Əhmədov
Xəzər Universiteti
Elmi Tədqiqatlara Dəstək Mərkəzinin direktoru

NANOTEXNOLOGİYA
Ətraf mühitə təhlükə, yoxsa?

Alimlər, tədqiqatçılar, ekspertlər, mühəndislər, sosioloq və strateqlər inanırlar ki, nanotexnologiya dünya sənayesində, kənd təssərrüfatında və tibbdə əsaslı dönüş yaradacaq, bu texnologiyanın cəmiyyətin inkişafına verdiyi təkanı kompüterləşmənin təsiri ilə müqayisə etmək mümkün olacaq.

Nanotexnologiyanın yaratdığı materiallar indiyə qədər ətraf mühitdə olmamışdır, onların xassələri və keyfiyyətləri haqqında yalnız nəzəri biliklərə malik olmuşuq.

Keçən əsrin 80-ci illərindən başlayaraq artıq bu biliklər reallaşmış və nanotexnologiyanın köməyi ilə çox geniş miqyasda ətraf mühüt, texnika, inşaat, tibb və sənaye üçün yeni, yüksək keyfiyyətli, nanoölçülü elə material və qurğular yaradılmağa başlamışdır ki, onların potensial gücü haqqında indi fantastik proqnozlar vermək olar. Nanotexnologiyanın imkanları daxilində yaradılan material və qurğuların ətraf mühitə, sağlamlığa və cəmiyyətin inkişafına həm müsbət, həm də mənfi təsir potensialına malik olduğu heç kimdə şübhə doğurmur. Məsələn, nanosensorlar – yüksək həssaslığa malik siqnal çeviriciləri vasitəsilə indi xəstəlik törədən mikroorqanizimləri torpaqda, suda və havada çox dəqiqliklə və tez bir zamanda aşkar etmək olur. Nanotexnologiya torpaqları çirklənmədən qorumaq, tullantısız sənaye prosesləri yaratmaq üçün böyük ümidlər verir.

Nanotexnologiya yeni tip daha keyfiyyətli, möhkəm, davamlı inşaat materialları, metal məhsulları, yanacaq, elektrik avadanlıqları yaratmağa imkan verəcək ki, bu da təbii resursların qorunmasına, onlardan səmərəli istifadəyə imkan yaradacaq və bir çox ekoloji problemlərin həllində əvəzsiz rol oynayacaq. Lakin onu da yaddan çıxarmaq olmaz ki, nanotexnologiya həm də ətraf mühit və insan sağlamlığı üçün arzuolunmaz, zərərli effektlər yarada bilər.


İnsan sağlamlığının və ətraf mühitin qorunması üçün nanotexnologiya böyük perspektivə malikdir. İndi nanomateriallar vasitəsilə tibbin bir sıra problemlərini həll etmək imkanları yaranmışdır. Odur ki, movcud olan və yaradılması nəzərdə tutulan nanomaterialların çeşidi günbəgün artır və tətbiqi intensivləşir. Lakin alimləri, sənaye işçilərini, rəsmi dövlət adamlarını və ictimaiyyəti maraqlandıran əsas məsələ bu nanomaterialların canlı aləm, xüsusilə də insan üçün nə dərəcədə təhlükəli olduğunu müəyyən etməkdir. Bu məsələnin həlli nanomaterialların toksikliyini aydınlaşdirmaq üçun fundamental elmi metodların yaradılmasını tələb edir. Bu sahadə aparılan tadqiqatlar müasir toksikologiya elminin bazasında aparılsa da, tamamilə yèni fiziki və kimyəvi xassələr büruzə verən nanomaterialların tibbdə tətbiqi daha dərin elmi araşdirmalar tələb edir.

İlkin elmi araşdırmalar göstərmişdir ki, nanomateriallarla əlaqədar potensial riskin qiymətləndirilməsi mürəkkəb bir məsələdir. Nanohissəciklər insanların orqanizminə nəfəs yolları, həzm aparatı, dəri vasitəsilə, dərmanların yeridilməsi yolları ilə daxil ola bilir. Onların ölçüləri ağlagəlməz dərəcədə kiçik olduğundan sanki nanohissəciklər üçün maneə yoxdur. Bu səbəbdən nanohissəciklərin təhlükəsizliyini, onların bioloji

strukturlara təsir mexanizmini aydınlaşdırmaqla qiymətləndirmək daha məqsədəuyğundur.


Hazırda nanomaterialların toksikliyini necə müəyyən edirlər?

Hər hansı bir nanomaterialın toksikliyi onun tərkibindən, ölçüsündən, liqandliğından, səth örtüyündən asılıdır. İlk əvvəllər nanomaterialların toksikliyini elə ultra kiçik hissəciklərin toksiklik effektləri ilə müqayisə etməklə müəyyən edirdilər. Titanium dioksid, alüminium dioksid, karbon, kobalt, nikel və s. tərkibli nanohissəciklərdə belə bir qanunauyğunluq müşahidə olunur: hissəciklərin ölçüləri kiçildikcə onların toksikliyi artır. Məsələn, 1994-cü ildə Oberdorster və başqaları polimorfo-leykositlərin ağciyərlərə daxil olmasını müşahidə edərkən müəyyən etmişdilər ki, ölçüləri 21 nm olan titanium dioksid nanohissəcikləri ağciyərlərdə ölçüləri 250 nm olan hissəciklərdən 43 dəfə çox iltihab yaradır. Nanohissəciklərin ölçüləri adətən orqanizmdə olan zülalların ölçüləri tərtibində olur. Məsələn, ciyər alveollarında makrofaqların diametri 24 nm, eritrositlərinki isə 7-8 nm tərtibindədir. Odur ki, nanohissəciklərin hüceyrələr tərəfindən tutulması və udulması ehtimalı çox böyükdür.



Nanohissəciklərin alveollar ətrafında toplanması

2004-cü ildə Goodman və başqaları tədqiqatlarında müəyyən etmişlər ki, 2 nm ölçüsündə olan qızıl nanohissəciyinin hüceyrədə toksikliyi onun elektrik yükündən asılıdır. Qızıl nanohissəciklərindən indi DNT birləşdirici agent, zülal ingibitorları və digər tibbi tətbiqlərdə geniş istifadə edirlər. Təcrübələrdən aydın olmuşdur ki, müsbət yüklənmiş qızıl hissəcikləri məməlilərin iki tip (eritrosit və Cos-1) hüceyrələri və E.coli bakteriyaları üçün çox toksikdir. Lakin mənfi yüklü qızıl nanohissəciklərin hətta yüksək qatılığında belə toksiklik müşahidə olunmamışdır.



Birlaylı karbon nanoborucuqlarının alveollara daxil olması

Nanohissəciklərin orqanlara yayılması onların kimyəvi reaktivliyindən, səthinin xarakteristikalarından və hüceyrə membranda, orqanizmdə olan zülallarla birləşmə qabiliyyətlərindən asılı olur.

2003-cü ildə Tinkle və başqaları in vitro təcrübələrdə aydınlaşdırmışlar ki, 0,5-1 nm ölçülü dekstran sferik nanohissəcikləri insanın dərisinə daxil olur, lakin 2-4 nm diametrli hissəciklər daxil ola bilmir.

1999-cu ildə Laddeman və başqaları müəyyən etmişlər ki, nm tərtibində olan titanium dioksid dərinin stratum corneum təbəqəsinə, tüklərin kökünə və tər vəzlərinə qədər çatır, lakin epidermis və dermis təbəqələrinə daxil ola bilmir.

Kvant nöqtələri deyilən nanohissəciklər (QDs) luminessent biomarker kimi istfadə edilən maraqlı nanohissəciklərdir. Araşdırmalar göstərir ki, nüvəsində CdSe olan bu nanohissəciklərin təsirindən insanın neyroblastoma hüceyrələrində mitaxondrilərin membran potensialı tamamilə azalır, sitoxrom C kompleksi membrandan aralanır, oksigenin reaktiv formalarının miqdarı artır, nəticədə apoptotic biokimyəvi dəyişikliklər yaranir. Maraqlıdır ki, bu nanohissəciklər ZnS ilə

örtüldükdə hüceyrədə belə dəyişikliklər müşahidə olunmur. Bu onu göstərir ki, ZnS örtüyü CdSe tərkibli kvant nöqtələri nanohissəciklərinin sitotoksikliyini azaldır.

Cd və Se huceyrələr üçün toksik hesab edilən elementlərdir. İlkin təcrübələrdə müəyyən edilmişdir ki, CdSe tərkibli kvant nöqtələri nanohissəcikləri bölünməyən hüceyrələr üçün toksik deyil.

2004-cü ildə Şiohara və başqaları in vitro təcrübələrdə müəyyən etmişlər ki, CdSe nanohissəcikləri 3 növ hüceyrələrin (meymunun böyrək, HeLA hüceyrələri, insan hepatitləri) yaşama qabiliyyətini azaldır və 4-6 saatliq inkubasiyadan sonra onlar ölürlər. Derfus və başqaları həmçinin CdSe tərkibli kvant nöqtələri nanohissəciklərinin hepatit hüceyrələri üçün toksik olduğunu aşkar etmişlər.

Bioloji proseslərdə əmələ gələn sərbəst radikalların qeyd edilməsi üçün sensor rolunu oynayan CdSe tərkibli kvant nöqtələri nanohissəciklərindən EPR və fluoressensiya spektoskopiyası təcrübələrində istifadə etməyə başlamişlar. Sərbəst radikalların qeyd edilməsi bir çox tibbi problemlərin həll olunmasinda mühüm əhəmiyyət kəsb etdiyindən sensor tipli belə nanohissəciklərin istifadəsi getdikcə intensivləşəcək. Odur ki onların huceyrələrdə yaratğı effektlərin öyrənilməsi də xüsusi əhəmiyyət kəsb edir.


Diametri 2-7 nm tərtibində olan yarımkeçirici nanokristallar (Kvant nöqtələri), fluoressent markerlər kimi tibbi və bioloji tədqiqatlarda geniş istifadə edilməyə başlanmişdır. İndiana Universitetinin alimləri bu nanohissəciklərdən istifadə edərək diametri 1 mkm olan plastik gençipləri yaratmişlar. Bundan başqa, bu nanohissəciklərdən xəstəliklərin diaqnostikasında, dərmanların yeridilməsində və infeksiya ocaqlarının aşkar edilməsində istifadə etmək olar.

Səthi müxtəlif üsullarla modifikasiya olunmuş CdSe və CdSe/ZnS nanohissəciklərinin sitotoksik effektləri öyrənilmişdir. Onların toksikliyi hücüyrəyə daxil olmaları dərəcələri ilə, həmçinin hüceyrə membranlarında ion kanallarına təsirləri ilə qiymətləndirilmişdir.

Karbon nanoborucuqlar (CNT) birlaylı (SWCNT) və çoxlaylı (MWCNT) ola bilir. Birlaylı karbon nanoborucuqlarının diametri 1-2 nm, çoxlaylıların diametri isə 20 nm tərtibində olur. Karbon borocuqları ağciyərlərdə özlərini liflər kimi göstərir. Bu nanomateriallar əsasən tənəffüs sistemi üçün toksik hesab edilir.

2004-cü ildə Lam və başqaları birlaylı karbon nanoborucuqlarının üç növündən ikisini siçanların ağciyərlərinə yeridərkən qranullaşmalar müşahidə etmişlər. Silisium tərkibli nanoborucuqlar ciyərlər üçün çox toksik olmuşdur. Şvedova və başqaları birlaylı karbon nanoborucuqlarının və kvarts nanohissəciklərinin fizioloji qatılıqlarında granullaşma, fibroz, iltihabın artmasını müşahidə etmişlər.

2005-ci ildə in vitro təcrübələrdən birində Cui və başqaları birlaylı karbon nanoborucuqlarının təsirindən insan rüşeyminin böyrək hüceyrələrinin böyüməsinin və yapışma qabiliyyətinin azaldığını müşahidə etmişlər.



60 ədəd karbon atomundan ibarər Fulleren nanohissəciyi

Polipeptid nanoborucuqlar bakteriyaların membraninda deşiklər açir və bakterial membranın keçiriciliyini dəfələrlə artırır. Membranı deşilmiş bakteriya az bir zamanda məhv olur. Odur ki, bu nanohissəciklərdən antibakterial agent kimi istifadə etmək olar. Burada əsas problem ondan ibarətdir ki, bu nanoborucuqlar eukariot hüceyrələrin də plazmatik membranında belə deşiklər açа bilir. Ona görə də onların hüceyrənin plazmatik membranı ilə qarşiliqlı təsirinin öyrənil-

məsi nanotoksikoloyada alimlərin qarşısında duran mühüm məsələlərdən biridir.

Karbon tərkibli nanohissəciklərin bir növü də "Fulleren"lərdir. Bunlardan ən çox işlədiləni tərkibində 60 ədəd karbon atomu olan C_{60} Fullerenidir. Bu nanohissəciklər şar formasında pentagonos və heksogenos guruluşu əmələ gətirir. Fullerenlər tibbdə ən çox tətbiq olunan nanohissəciklərdir. Odur ki, onların toksikliyi bir qədər geniş öyrənilmişdir. Amerikanın Rice Universitetinin almləri 1-15 ppm qatiliqlarda Fullerenlərin məməlilərin hüceyrələrini məhv etdiyini müəyyən etmişlər.

2004-cü ildə Sayes və başqaları aydinlaşdirmışlar ki, Fullerenlərin səthində karboksil qrupları olanda onların suda həll olma qabiliyyəti artır. Bu zaman hüceyrələrin ölümünə səbəb onların membranlarının zədələnməsi olur.

2004-cü ildə Chen və başqaları öz təcrubələrində göstərmişlər ki, suda həll olunan polialkilsulfonat Fullerenlərlə yemlənən siçanlar ölmür, ancaq intraperitoneal tətbiq edildikdə böyrəklərdə toksik effect yaranır və siçanlar ölür.


Tibb üçün maraqlı nanohissəciklərdən biri də maqnit nanohissəcikləridir. İnsan bədənində təbii olaraq dia-, para, superpara və ya ferromaqnit komponentləri olur. Bir sıra hüceyrələrdə dəmir oksidi nanohissəcikləri var ki, onların necə yarandığı və ya kənardan düşdüyü hlə də məlum deyil.

Təbii dəmir tərkibli strukturlara hemosiderin, ferritin, transferin və sitoxromları aid etmək olar. Maqnit nanohissəciklərindən tibbdə əsasən diaqnostika, dərmanların çatdirilması, hepertermiya müalicəsində, maqnit rezonansı şəkillərinin alınmasında istifadə edirlər. Maqnit nanohissəcikləri hüceyrəyə daxil olduqdan sonar orqanlara, toxumalara maqnit sahəsi tətbiq etməklə onları istiqamətləndirmək və hərəkət etdirmək olur.


2003-cü ildə Çartmell və başqaları hüceyrələrə xarici maqnit sahəsini tətbiq etməklə nanohissəciklərin hərəkətini iki dəfə sürətləndirməyə nail olmuşlar.

2003-cü ildə Delbi və başqaları tərəfindən polimer örtüklü maqnit nanohissəciklərinin gen ekspressiyası yaratdığı aşkar edilmişdir.


Nanomaterialların və nanohissəciklərin toksikliyini, onların ətraf mühit və insan sağlamlıgı üçün təhlükəliliyin müəyyən etmək üçün indi dünyanın bir sıra tədqiqat mərkəzləri intensiv iş aparırlar. Bu sahədə onların geldiyi nəticələr hələlik ilkin faktlardır. Əminliklə demək olar ki, nanotoksikologiya yaxın zamanlarda elmin yeni sahəsi olacaq və bu sahənin inkişafına dünyanın əksər elmi mərkəzləri qoşulacaq.




Largemouth bass balığını 48 saat Fulleren nanohissəcikləri olan məhlulda saxladıqdan sonra onların beynində lipidlərin dağıldığını müşahidə etmişlər



Daphniani suda həll oluna bilən Fulleren nanohissəcikləri məhlulunda 48 saat saxladıqda onların yarımyaşama dövrü kəskin azalmışdır



Toxmaların TiO_2 nanohissəcikləri ilə zədələnməsi



Makrofaqlarda nanohissəciklərin toplanması

В США прогнозируется резкое сокращение числа крупных газет

(Более молодые читатели узнают новости из интернета)

Большинство ежедневных газет, выходящих в больших американских городах, в ближайшие 20 лет исчезнет, и на смену им придут интернет и другие формы "новых СМИ". Такое мнение высказали в интервью America.gov несколько экспертов в области журналистики.

Пол Гиллин, журналист и консультант по вопросам СМИ из Массачусетса, который специализируется на тематике, связанной с информационными технологиями, предполагает, что выживут всего четыре-пять крупных газет, в том числе "Вашингтон пост", "Нью-Йорк таймс", "Уолл-стрит джорнэл" и "Ю-Эс-Эй тудей".

По его словам, эти газеты продолжат существовать, потому что все они приняли разумное деловое решение вложить деньги в распространение своих изданий по всей стране, чтобы у них было больше читателей.

Гиллин, ведущий блог (сетевой дневник) под названием "Наблюдение за смертью газет", отметил, что крупные американские газеты продолжают предлагать ценные новости. "Но их модели бизнеса просто не выживут, вся экономика работает против них", - сказал Гиллин. Под этим он подразумевает, что газеты несут огромные финансовые убытки из-за высоких расходов на большой штат репортеров и тех, кто макетирует, выпускает и распространяет печатные издания.

Финансовые потери усугубляются результатами демографических исследований, которые показывают, что люди в возрасте до 30 лет не читают традиционных газет, отметил Гиллин. По его словам, молодое поколение в основном узнает о новостях в интернете.

Гиллин ожидает "взрыва" в области, которую он называет малой журналистикой. Речь идет о бесплатных местных газетах, которые можно читать во время поездки на работу, занимающей 25-30 минут. По его словам, эту тенденцию воплощает компания "Метро интернэшнл", издающая бесплатные газеты в Бостоне, Нью-Йорке, Филадельфии и других городах по всему миру с целью предлагать новости, привлекающие молодых и все более мобильных специалистов.

"Мы уже видим, как профессиональные журналисты переходят в категорию корпоративных издателей", - сказал он. По словам Гиллина, это означает, что "потребность в профессиональных репортерах останется высоко".

Журналистам также понадобится обучение, чтобы стать "мультимедийными" репортерами. При этом они учатся снимать видеоматериалы на месте событий в дополнение к своим материалам.

Кроме того, по словам Гиллина, журналистам придется стать "агрегаторами", то есть опубликованный материал продолжит пополняться с помощью таких новых информационных средств, как подкасты и видео.

"Нам надо избавиться от представления о том, что после публикации материала работа над ним заканчивается", - сказал Гиллин. Журналисты будут служить тем "каналом", по которому в материалы будут постоянно добавляться обновления. Такой метод используется сетевой информационной службой под названием "Википедия".

14 февраля Гиллин написал в своем блоге, что если бы Томас Джефферсон (третий президент США в 1801-1809 годах) жил сегодня, "он был бы активным блоггером". Новые формы СМИ, по мнению Гиллина, представляют собой "самый демократичный процесс в издательском деле за 500 лет".

Объективное освещение событий считается устаревшим

Стив Борисс, помощник директора Центра по применению информационных технологий при Вашингтонском университете в Сент-Луисе, считает, что новости становятся частью "одной большой индустрии развлечений, от очень серьезных до экзотичных".

Борисс, который также ведет блог под названием "Будущее новостей", полагает, что репор-

терам предстоит дополнять и "упаковывать" новостные материалы, добавляя к статьям собственное мнение и анализ.

По его словам, за последние 100 лет сложился "миф" о том, что события надо освещать с полной объективностью, без учета личного мнения репортера.

Однако осуществляемый репортером подбор фактов, относящихся к теме его статьи, тоже представляет собой мнение журналиста, отметил Борисс. "Это мнение о том, что он считает важным".

По словам Борисса, при создании Соединенных Штатов предполагалось, что люди будут свободно высказывать свое мнение и обсуждать вопросы. Право высказывать свое мнение он назвал "священным".

Примерно 100 лет назад, рассказал Борисс, "делались попытки превратить журналистику в науку, а журналистов - в людей, говорящих правду. Эта модель сохранялась дольше, чем надо бы". Старая "модель распадается", добавил он.

Борисс указал, что такие крупные газеты, как "Нью-Йорк таймс" и "Вашингтон пост" традиционно начинают "общенациональный разговор", к которому затем подключаются телекомпании.

"Но теперь интернет позволяет вести очень много разговоров, и все новости не должны фильтроваться (малой) системой их подачи", - сказал он.

Бывший репортер пожалел бы об исчезновении газет

Не все разделяют энтузиазм в связи с предрекаемыми переменами в журналистике.

Бывший репортер "Нью-Йорк таймс" Чарльз Кайзер, например, говорит, что читать газету в печатном виде ему "гораздо приятнее", чем читать ее в интернете.

"Просто невозможно просмотреть за час столько материалов (в интернете), сколько их можно просмотреть, перелистывая бумажную версию", - отметил Кайзер, также известный автор, в прошлом корреспондент журнала "Ньюсуик" и газеты "Уолл-стрит джорнэл".

Кайзер, который ведет блог под названием "Пресса в полном составе", беспокоится, что исчезновение традиционных печатных газет невольно приведет к негативным последствиям.

Если репортеров, особенно тех, кто занимается журналистскими расследованиями, станет меньше, по мнению Кайзера, это означает, что "меньшее количество тем будет рассматриваться углубленно, а именно в этом заключается важнейший вклад прессы в обеспечении силы демократии".

(Распространено Бюро международных информационных программ Государственного департамента США.

Muslims overtakes Catholics

Islam has surpassed Roman Catholicism as the world's largest religion, the Vatican newspaper said Sunday.

"For the first time in history, we are no longer at the top: Muslims have overtaken us," Monsignor Vittorio Formenti said in an interview with the Vatican newspaper L'Osservatore Romano. Formenti compiles the Vatican's yearbook.

He said that Catholics accounted for 17.4 percent of the world population — a stable percentage — while Muslims were at 19.2 percent.

"It is true that while Muslim families, as is well known, continue to make a lot of children, Christian ones on the contrary tend to have fewer and fewer," the monsignor said.

Formenti said that the data refer to 2006. The figures on Muslims were put together by Muslim countries and then provided to the United Nations, he said, adding that the Vatican could only vouch for its own data.

When considering all Christians and not just Catholics, Christians make up 33 percent of the world population, Formenti said.

Spokesmen for the Vatican and the United Nations did not immediately return phone calls seeking comment Sunday.

By Alessandra Rizzo, Associated Press

Maraqlıdır

SÖZ OYUNU – "FREERICE"


Sinonim kəlmələri tapmaqdan ibarət olan oyun hər doğru cavaba görə aclıq təhlükəsi qarşısında qalan insanların hesabına 10 düyü köçürür. ***"FreeRice"*** adlı internet saytı hər gün 50 min ac insanı doydurur. Saytda oynanan kəlmə oyununda hər doğru cavab nəticəsində boşqaba 10 düyü əlavə olunur. Saytın təşkilatçılarının məqsədi hər gün 25 min insanın aclıqdan öldüyü Afrika qitəsindəki möhtac insanlara dəstək olmaqdır.

http://www.freerice.com/ adlı internet saytındakı kəlmə oyunu kampaniyası ilə ac insanlara dəstək olmağa çalışır. Sinonim kəlmələri tapmaqdan ibarət olan oyunda hər düzgün cavab, 10 ədəd düyü alacaq pulu bağışlayır. Pul isə sayta reklam verən şirkətlər tərəfindən ödənilir. Sayta reklam verənlər bu pulu BMT-nin Ərzaq Proqramı Departamentinin hesabına köçürür.

İTMİŞ XƏZİNƏ TAPILIB

Ömrünü dünyanın 8-ci möcüzəsi adlandırılan "Kəhrəba otağın" axtarışlarına həsr etmiş xəzinə ovçusu Kristian Hausteyn sonda arzusuna çatıb.

Rusiyanın itmiş xəzinəsi 67 ildir gizlədildiyi Almaniyanın Döyçendorf qəsəbəsində insanlar tərəfindən düzəldilmiş mağaradan tapılıb. "Kəhrəba otaq" 1941-ci ildə faşistlər tərəfindən hücumlara məruz qalmış Sankt-Peterburqdakı Yekaterina Sarayının bir hissəsini təşkil edirdi. Sözügedən otaq adını divarlardakı qızıl bəzək əşyaları üzərində işlənmiş kəhrəba bəzəklərdən alıb.



"Kəhrəba otaq"dan ən azı 2 ton qızılla yanaşı, bahalı əşyalar, qiymətli daşlar və ləl-cəvahirat aparan faşistlər özlərindən sonra boş bir otaq qoyublar. Uzun illər davam edən axtarışlar isə yalnız 67 ildən sonra öz bəhrəsini verib. Axtarış cihazları vasitəsilə xəzinənin yerini tapdığını açıqlayan Hausteyn 20 metr dərinlikdə yerləşən mağaranın "Kəhrəba otaq" kimi bəzədildiyini söyləyib. Onun sözlərinə görə, otaqda tonlarla qızıl və qiymətli daşlar var. Xəzinənin girişində və daxilində tələlərin qurulduğunu deyən Hausteyn bir neçə gün sonra mağaraya mütəxəssislərin köməyi ilə girəcəklərini açıqlayıb.

DÜNYANIN ƏN YAŞLI QADINI OSMANLI VƏTƏNDAŞIDIR



Dünyanın ən yaşlı qadını kimi Ginnesin Rekordlar Kitabına düşən Məryəm Amaş Osmanlı dövlətinin vətəndaşıdır.


Hazırda İsraildə yaşayan Məryəm xanımın 120 yaşı var. Onun doğum haqqında şəhadətnaməsi bir vaxtlar bu torpaqları nəzarəti altında saxlamış Osmanlı dövləti tərəfindən verilib. O, Qüdsün Osmanlı türklərinin hakimiyyəti altında olduğu dövrü xatırladığını deyir.

10 uşağı olan Məryəm xanımın 120 nəvəsi, 250 nəticəsi, 20 kötücəsi var.

KOSMOSA SƏYAHƏT

Kosmosa səfər edəcək 6-cı milyonçu turist müəyyənləşib

Bu, ABŞ-lı kosmonavt Oven Garriotun oğlu, kompyuter oyunları istehsal edən şirkətin sahibi Riçard Garriotdur. Artıq Garriot sentyabr ayına planlaşdırılan səfərin hazırlığına başlayıb. O, kosmik macəraya görə tələb olunan 30 milyon dolları da ödəyib.



Uçuş barədə açıqlama verən Riçard Garriot kosmosun onun həyatında vacib rol oynadığını deyib: "Kosmos mənim üçün ən vacib şeyə çevrilməkdədir. Uçmaq həvəsi mənim yerdəki fəaliyyətlərimi ikinci plana keçirəcək".

Rusiya Federal Kosmik Tədqiqatlar Mərkəzi və ABŞ-ın "Adventures" firması arasındakı razılaşmaya əsasən, Garriot iki peşəkar kosmonavtla Beynəlxalq Kosmik Stansiyaya səfər edəcək. Garriot macərasına əlavə olaraq kosmosda gəzinti üçün 15 milyon dollar ödəməyi düşünür. Milyonçu uçuşdan öncə Rusiyada 6 həftə keçirəcək və burada tibbi müayinədən keçməklə yanaşı, "Soyuz" kosmik gəmisi ilə tanış olacaq. Bundan sonra Garriott Qazaxıstanda yerləşən "Boykonur" Kosmik Bazasına yollanacaq.

Xatırladaq ki, "Soyuz" kosmik gəmisi ilə Yerin orbitindəki stansiyaya turist daşınması ənənəsinin təməli 2001-ci ildə qoyulub. Bu hadisə amerikalı iş adamı Dennis Titonun adı ilə bağlıdır. Garriotdan əvvəl kosmosa səfər edən 5 milyonçudan hər biri ruslara 20 milyon dollar ödəmişdilər.

USAQ DÜNYASI

"Xəzər Xəbər" toplusunun məktəblilər üçün əlavəsi



YAZ GƏLİR, BAHAR GƏLİR...

Yurdumuza yaz gəlir...

Donu güllü-çiçəkli, yaxası ağ ləçəkli, qoynu kəpənəkli yaz...

Yurdumuza yaz gəlir...

Təbiətin incisi, fəsillərin incəsi yaz...

Bu yazın zəfər, hünər müjdəli yaz olacağından soraq verir sinəsi ağ qaranquşlar, halay-halay, dəstə-dəstə uçan quşlar...

Bu yazın qələbə soraqlı yaz olacağını muştuluqlayır tumurcuq-tumurcuq açılan güllər, sevinə-sevinə oxuyan bülbüllər...

Üzümüzə gələn Novruz bayramında dualarınız qəbul, niyyətləriniz çin olsun!..

Novruz gəlir, yaz gəlir,
Göydən xoş avaz gəlir.
Dilində: «Zəfər!» sözü,
Sinəsində saz gəlir!...

...Hə, istəklilərimiz, torpaq deyir: öldür məni, dirildim səni. Yəni ək, şumla, ək, becər, bəhər al, yaşa!

İnşallah, əzizlərimiz, inşallah, bu Yaz bayramının – Novruz bayramının Ulu Tanrıya ünvanlanan alqışları çatacaq köməyimizə, çatacaq dadımıza!...

İnşallah, gələn Novruzacan qaçqınlarımız, köçkünlərimiz qayıdacaqlar doğma məkanlarına...

Əkinçi əkinçiliyində, biçinçi biçinçiliyində, suçu suçuluğunda cövlan eləyəcək...

Azad olmuş torpaqlarımıza insan nəfəsi dəydikcə bağlarımız, bağçalarımız gözəlləşəcək, hər evə, hər ocağa bu ilahi gözəllikdən pay düşəcək...

Yaz gəlir, bahar gəlir,
Müjdəli zəfər gəlir.
Bu Odlar Diyarına
İşıqlı səhər gəlir!...


Arzularımıza, diləklərimizə gün doğsun, istəklilərimiz!...

Qılıncınız iti, sözünüz kəsərli olsun, nər igidlərimiz!...

Torpağın azad, bayrağın uca olsun, Ana Vətən!

Novruz bayramın mübarək, Azərbaycan!...

Knyaz Aslan


Əziz uşaqlar!

Siz boş vaxtlarınızda oynamağı xoşlayırsınız, elə deyilmi? Çoxlu oyunlar bilsəniz də, yenilərini də öyrənmək ürəyinizdən keçir. Bu işdə jurnalımız sizə yardımçı ola bilər. Gəlin başlayaq!

BƏNÖVŞƏ

Oyunda iştirak edənlər iki dəstəyə ayrılırlar. Hər dəstədə 6-9 nəfər olur. Hər iki dəstə bir-birindən 15-20 addım aralı dayanıb əl-ələ verir, cərgə ilə qarşı-qarşıya dayanırlar. Hər dəstənin bir nəfər başçısı olur.

İlk dəfə hansı dəstənin oyuna başlaması üçün püşk atılır. Qalib sayılan tərəfin oyunçuları bir ağızdan deyirlər:

- Bənövşə!

İkinci tərəfin adamları da öz başçıları ilə birlikdə xorla deyirlər:

- Bəndə düşə!

Yenə əvvəlki tərəf soruşur:


- Bizdən sizə kim düşə?

İkinci dəstənin başçısı cavab olaraq qarşı tərəfdəki uşaqlardan birinin adını çəkir:

- Adı gözəl, özü gözəl Gülnar düşə!

Adı çəkilən uşaq cərgədən ayrılaraq sürətlə yüyürüb rəqib komandanın əl-ələ tutan uşaqları arasından keçməlidir. Əgər o, uşaqların cərgəsini pozub keçə bilsə, dəstədən bir nəfəri özü ilə bərabər öz dəstələrinə gətirir. Cərgəni qıra bilməsə özü orada qalır. Sonra dəstələr öz vəzifələrini dəyişirlər. Bu dəfə o biri dəstə mahnı söyləyir və oyunu davam etdirir.

Beləliklə, hansı dəstə uşaqların hamısını öz tərəfinə çəkib qurtarsa, o tərəf qalib hesab olunur.



Novruz bayramı gəldi

Novruz bayramı gəldi,
Bənövşədi, ətirdi;
Bu xəbəri ellərə
İlk qaranquş gətirdi.

Novruz bayramı gəldi,
Günəş də yerin seçdi;
O,Cənub qurşağından
Şimal qurşağa keçdi.

Novruz bayramı gəldi,
Suyun buzu əridi.
Gətirdiyi bahar da
Yaz fəslidi-pəridi.

Novruz bayramı gəldi,
Torpağın canı qızdı;
Fəsillərin içində
Bahar gəlindi, qızdı.

Novruz bayramı gəldi,
Göyərtdi çöl-çəməni,
Evlərdə də cücərdi
Qırmızıbel səməni.

Novruz bayramı gəldi,
Aləmə nur saçıldı.
Meşələrdə, bağlarda
Novruzgülü açıldı.

Novruz bayramı gəldi;
Hava, torpaq oyandı.
Bayramda yumurtalar
Qırmızı rəng boyandı.

Novruz bayramı gəldi,
Tonqallar alovlandı.
Candan ağır-uğurlar
Töküldü, odda yandı.

Novruz bayramı gəldi,
Gecə-gündüz tən oldu.
Küsənlər də barışdı,
Hamı güldü, şən oldu.

Novruz bayramı gəldi,
O, düyündü, deyindi.
Böyüklər, uşaqlar da,
Təzə pltar geyindi.

Novruz bayramı gəldi,
Çöllər güldü, allandı.
Axşamlar bacalardan
Pay qurşağı sallandı.

Novruz bayramı gəldi,
Kin-küdurət qaçıldı.
Vəsfi-hal gecəsində
Tale falı açıldı.

Novruz bayramı gəldi,
Meydan tamaşasıyla;
Həm keçişi, keçəli,
Həm də ki, kosasıyla.

Novruz bayramı gəldi;
Şaxta, soyuq çəkildi.
Torpaq da şumlanaraq
Bol-bol məhsul əkildi.

Novruz bayramı gəldi,
Dedi: -Oğul, hazır ol!
Atəş, mərmi, gülləsən,
Düşmənin canına dol!

Novruz bayramı gəldi,
Yenə, yenə gələcək!
Müstəqil ölkəmizdə
Bizimkidir gələcək!

Bəhlul Abdulla

XƏZƏR UNİVERSİTƏSİ

11-ci sinif şagirdləri arasında dəqiq elmlər üzrə

OLİMPİADA

keçirir. Olimpiada riyaziyyat,
fizika və kimya fənlərini əhatə edən
vahid tapşırıqlar əsasında aparılacaqdır.

Olimpiadanın qalibləri *"Neft mühəndisliyi"* ixtisası üzrə Xəzər Universitəsinə qəbul olunduqda **BP** *və digər şirkətlərin* sponsorluğu ilə təhsil haqqından azad olmaq, təqaüd almaq, təhsillərini xaricdə davam etdirmək və xarici neft şirkətlərində işləmək imkanı əldə edəcəklər.

Ayrı-ayrı fənlər üzrə qaliblər digər uyğun ixtisaslara qəbul olunduqda onlara təhsil haqqının ödənilməsində güzəştlər ediləcək.

Olimpiada 3 may 2008-ci il saat 16:00-da keçiriləcək.

Unvan: Məhsəti küç.ll, Xəzər Universitəsi
(*"Neftçilər"* metrosunun yaxınlığında)
tel: 421-79-16,421-10-93

Əziz şagirdlər!
Sizi Olimpiadaya dəvət edirik.
Gələcək şansınızı əldən buraxmayın!

KHAZAR VIEW

XƏZƏR XƏBƏR

Öz ciddi məzmunu və rəngarəngliyi ilə seçilən
"Xəzər Xəbər" toplusu yenə sizin görüşünüzə gəlib.
"Xəzər Xəbər"də Azərbaycan, rus, ingilis,
türk və başqa dillərdə dərc olunan maraqlı xəbərlər,
ali və orta təhsil haqqında yeniliklər,
poeziya və ədəbiyyat səhifələri, məzəli əhvalatlar,
elmi əsərlər, siyasətə, mədəniyyətə, idmana aid yazılar, qəribə
sevgi macəraları, uşaq yaradıcılığı, maraqlı yarışlar -
müsabiqələr və s. könlünüzcə olacaq.
"Xəzər Xəbər" gənclərin və oxuyan,
düşünən hər kəsin dərgisidir.
"Xəzər Xəbər"i İNTERNET vasitəsilə dünyanın
hər yerində oxuyurlar.
"Xəzər Xəbər"i siz də oxuyun!
"Xəzər Xəbər"ə siz də yazın!
"Xəzər Xəbər"i şəhərimizdəki qəzet-jurnal
köşklərindən ala bilərsiniz.
"Xəzər Xəbər" ayda iki dəfə çıxır.

Ünvan: Bakı şəhəri,
Məhsəti küçəsi, 11.
Əlaqə telefonları: 421-79-16
421-10-93.
E-mail: xazarxabar@khazar.org